# Müqəddəs Ramazan bayramınız mübarək!

**Günün sözü**

## Prezident İlham Əliyev:

Azərbaycan xalqı əsrlər boyu öz milli-mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir.



Səhifə ⇨ 4

45 il bundan əvvəl bu gün Azərbaycan dili rəsmi status almışdı

## Ermənistanın Qərbə xəyanəti



Səhifə ⇨ 4


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 83 (30199) 21 aprel 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


# İslam dəyərləri ölkəmizdə anlaşmaya, həmrəyliyə və birliyə xidmət edir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nərimanov rayonunda "Cümə" məscidinin açılışında iştirak ediblər



**Aprelin 20-də Bakının Nərimanov rayonunda dövlətimizin başçısının təşəbbüsü ilə aparılan əsaslı təmirdən və rekonstruksiyadan sonra "Cümə" məscidinin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

*(ardı 2-ci səhifədə)*

## Prezident İlham Əliyev Ramazan bayramı ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında Ramazan bayramı ilə əlaqədar paylaşım edib.**




**Paylaşımdakı fotonun üzərində qeyd edilib: "Ramazan bayramınız mübarək!".**

## Kuba Respublikasının Prezidenti Zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə

**Hörmətli cənab Prezident!**

Kuba Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Xoş ənənələrə əsaslanan Azərbaycan-Kuba əlaqələri bu gün uğurla inkişaf etməkdədir. İnanıram ki, ölkələrimiz arasındakı dostluq münasibətlərinin daha da inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımızın genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Kuba xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 20 aprel 2023-cü il**

## Milli dövlətçiliyimizin xilaskarının media dərsləri

Səhifə ⇨ 7

# İrəvanın rəğbət ünvanı tez-tez dəyişir

Səhifə ⇨ 5

## Paşinyan iki od arasında



Səhifə ⇨ 9

## Mariya Stadnik 9 qat Avropa çempionu oldu



Səhifə ⇨ 12

## Paytaxt nəqliyyatında idarəetmə təkmilləşdirilir

Səhifə ⇨ 8

## Ağdam – "ruhlar şəhəri" doğmalarını bağrına basır



Səhifə ⇨ 6

## Sülh, yoxsa hərb?




Səhifə ⇨ 5

## Sudandakı vəziyyət beynəlxalq təşkilatlarda müzakirəyə çıxarılır



Səhifə ⇨ 9

## 100 şəhid və qazi ailəsi mənzil aldı



Səhifə ⇨ 11

## Türkiyədə Qara dəniz qazının ilk məşəli alovlandırıldı

Səhifə ⇨ 8

## İlahi sınaq və mənəvi kamillik marafonu



Səhifə ⇨ 11

# Azərbaycan səfirliyi Rusiya XİN-ə nota verib

Səhifə ⇨ 4

# İslam dəyərləri ölkəmizdə anlaşmaya, həmrəyliyə və birliyə xidmət edir



(əvvəli 1-ci səhifədə)

Bu gün multikultural ənənələri, tolerant mühiti, İslam dünyası daxilində həmrəyliyin möhkəmlənməsi istiqamətində atdığı tarixi addımları qlobal miqyasda maraqla qarşılanan Azərbaycanda müxtəlif dinlərin, o cümlədən İslam dini abidələrinin qorunmasına xüsusi diqqətlə yanaşılır. Son dövrlərdə yeni məscidlərin tikilməsi və ya əsaslı təmiri də bu yanaşmanın təzahürüdür.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın müqəddəs Ramazan bayramı ərəfəsində "Cümə" məscidinin açılışında iştirak etmələri həm də rəmzi məna kəsb edir.

Qeyd edək ki, "Cümə" məscidi 1998-ci ildən fəaliyyətə başlayıb. İllər ötdükcə bina tədricən qəzalı vəziyyətə düşüb. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə bu məsciddə əsaslı təmir və yenidənqurma işlərinə başlanılıb. İşlər yüksək səviyyədə həyata keçirilib və bu ilin aprel ayında başa çatdırılıb.

Qəzalı vəziyyətdə olan iki minarə aparılan işlər çərçivəsində sökülərək yenidən tikilib, məscid binasında bərpa-gücləndirmə işləri yerinə yetirilib, dəstəmazxana binası inşa olunub, zəruri infrastruktur yaradılıb.

Eyni vaxtda 600-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub.

Burada yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsü və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib, bərpa olunub və ya yenidən qurulub. Bu istiqamətdə görülən işlərə Heydər Əliyev Fondu da sanballı töhfələr verib.



Nərimanov rayonundakı "Cümə" məscidində aparılan əsaslı təmir və yenidənqurma işləri də ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir.

***

Qeyd edək ki, bu gün qloballaşan dünyada etnik-dini zəmində baş verən münaqişələr, dini ekstremizm və islamofobiya, dinin bəzi siyasi ambisiyalara alət edilməsi cəhdləri, təəssüf ki, acı gerçəklikdir. Azərbaycan dövlətinin isə milli-mənəvi dəyərlərin, o cümlədən İslam ənənələrinin qorunması ilə bağlı ardıcıl siyasəti var.

Prezident İlham Əliyev "2017–İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın açılış mərasimindəki nitqində bununla bağlı deyib: "Azərbaycan xalqı əsrlər boyu öz milli-mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir".

2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi, ölkəmizin İslam Həmrəyliyi Oyunlarına, eyni zamanda, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumuna, Mədəniyyətlərarası Dialoq Forumları və Bakı Humanitar Forumu kimi dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın həm İslam, həm də sivilizasiyalararası dialoqla qlobal sülhə töhfəsinin ifadəsidir. Bu yanaşma, şübhəsiz ki, İslamın təməl prinsipləri ilə üst-üstə düşür.

***AZƏRTAC***

# Neftçala rayonunun Xanməmmədli–Qaçaqkənd–Qırmızıkənd–Xol Qarabucaq–Xəzər avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** On beş min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Xanməmmədli–Qaçaqkənd–Qırmızıkənd–Xol Qarabucaq–Xəzər avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 7,0 (yeddi) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2023-cü il**

# Salyan rayonunun Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi magistralını Şorsulu, Boranıkənd, Seyidlər, Dayıkənd, Sarvan, Bəydili, Qızılağac və Alçalı kəndləri ilə birləşdirən avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi magistralını 16 min nəfər əhalinin yaşadığı Şorsulu, Boranıkənd, Seyidlər, Dayıkənd, Sarvan, Bəydili, Qızılağac və Alçalı kəndləri ilə birləşdirən avtomobil yollarının tikintisi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yollarının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2023-cü il**

# İqtisadi Şuranın növbəti iclası



**Aprelin 20-də Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın növbəti iclası keçirilib**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, iclasın gündəliyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli iqtisadiyyatımızın mövcud müsbət nəticələrini, makroiqtisadi vəziyyəti, cari ilin birinci rübü üzrə dövlət büdcəsi gəlirlərinin proqnozdan artıq icra göstəricilərini nəzərə alaraq 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılması (dürüstləşmə) ilə bağlı Hökumətə verdiyi tapşırıqlar, o cümlədən, Ortamüddətli Xərclər Çərçivəsi və 2024-cü il və növbəti üç il üçün icmal və dövlət büdcələrinin proqnozları, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası" üçün maliyyə təminatı və digər məsələlər geniş müzakirə olunub.

İclasda maliyyə naziri Samir Şərifovun məruzəsi və Şura üzvlərinin rəy və təklifləri dinlənilib.

İclasın yekununda 2023-cü ilin dövlət büdcəsinə əlavə düzəlişlər hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

***"Xalq qəzeti"***

# Çində "Azərbaycan mədəniyyətinə pəncərə"



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Çin Xalq Respublikasına (ÇXR) səfəri çərçivəsində bu ölkənin Kommunist Partiyasının Benbu şəhər komitəsinin katibi Xuan Siaovu və Tayhu Dünya Mədəniyyət Forumunun rəhbəri Cen Çuansin ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, ÇXR Kommunist Partiyasının Benbu şəhər komitəsinin katibi Xuan Siaovu Azərbaycanın Benbu şəhərinin "Qədim məskənlər" mədəniyyət parkına dəstək göstərən ilk ölkələrindən olduğunu vurğulayaraq Heydər Əliyev Fondu tərəfindən parkda yaradılan "Azərbaycan mədəniyyətinə pəncərə" adlı milli pavilyonun qurulmasına görə təşəkkür edib.

2021-ci ildən fəaliyyət göstərən "Azərbaycan mədəniyyətinə pəncərə" pavilyonunun parka mütəmadi gələn ziyarətçilərin marağına səbəb olduğu bildirilib. Cənab Siaovu şəhərin turizm potensialının gələcəkdə artacağı səbəbindən parka və pavilyona da yüksək ziyarət axını olacağını qeyd edib.

Tayhu Dünya Mədəniyyət Forumunun rəhbəri Cen Çuansin ötən forumda Azərbaycanın fəxri qonaq qismində iştirakını və Azərbaycan Prezidenti İlham Əliyevin forum iştirakçılarına müraciətinin mədəni əlaqələrin inkişafı baxımından əhəmiyyətindən söz açıb. O, gələcək forumlarda da Azərbaycanla əməkdaşlıq etmək niyyətini bildirib.

Qeyd edək ki, "Qədim məskənlər" parkında məhdud sayda xarici milli pavilyonlardan birinci fəaliyyətə başlayanı məhz Azərbaycan pavilyonu olub. Pavil-



yonda Azərbaycanın müxtəlif xalçaçılıq məktəblərini təmsil edən xalça və kilimlər, misgərlik, dekorativ yaradıcılıq və şəbəkə sənəti nümunələri, milli geyimlər, musiqi alətləri, habelə Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinə, tarixinə, ölkəmizin müasir inkişafına dair nəşrləri, milli suvenirlər nümayiş olunur. Bundan başqa, Azərbaycanın dahi şair və mütəfəkkiri Nizami Gəncəvinin büstü, "Xarıbülbül", "Qız qalası" və "Ceyranlar" silsiləsindən heykəltəraşlıq əsərləri, Qobustan qayaüstü rəsmlərinin imitasiyası da eksponatlar sırasında yer alıb.

# Sahibə Qafarova Varşava Universitetində

**Milli Məclisin Sədri Sahibə Qafarova Polşa Respublikasına rəsmi səfəri çərçivəsində Varşava Universitetində "Dialoq və həmrəylik: Azərbaycanın əməkdaşlıq və inkişafa baxışı" mövzusunda məruzə ilə çıxış edib.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən redaksiyamıza bildirilib ki, S. Qafarova əvvəlcə Azərbaycan xalqının qədim tarixi və zəngin ənənələri haqqında məlumat verib. Milli dövlətçiliyinin 5 min illik tarixi olduğunu qeyd edən Sədr Azərbaycan ərazisində mövcud olmuş çoxsaylı dövlətlər, 1918-ci il mayın 28-də müsəlman Şərqində elan edilmiş ilk demokratik parlament respublikası – Xalq Cümhuriyyəti, onun həyata keçirdiyi milli tədbirlər barədə danışıb. 1991-ci ildə müstəqilliyin bərpası ilə tariximizdə yeni bir dövrün başlandığını vurğulayan parlament Sədri müstəqillik illərində ölkəmizin əldə etdiyi möhtəşəm nailiyyətləri auditoriyanın diqqətinə çatdırıb.

Milli Məclisin Sədri daha sonra bildirib ki, 30 ildən artıqdır ki, BMT-nin üzvü kimi Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini beynəlxalq arenada yeganə davranış qaydaları kimi qəbul edərək, qarşılıqlı etimad və maraqlar əsasında çoxvektorlu əməkdaşlığa və bərabərhüquqlu tərəfdaşlığa önəm verir, dünyada dialoq və həmrəyliyə dəstək göstərir. Ölkəmiz 155 üzv dövlətin dəstəyi ilə 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Azərbaycan BMT ilə yanaşı, Qoşulmama Hərəkatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatı və digər beynəlxalq və regional qurumların da üzvüdür.

Parlamentin Sədri Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsindən, 30 il Ermənistanın işğalı altında olan 20 faiz ərazisini öz gücü ilə azad etməsindən, Qarabağ və Şərqi Zəngəzurda törədilmiş kütləvi erməni vandallığından söhbət açıb. O, Ermənistanın son hərbi-siyasi təxribatları barədə məlumat verib, işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən quruculuq işlərindən də danışıb.

Sonda Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovaya Varşava Universitetinin Fəxri diplomu və medalı təqdim edilib.

***Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"***

# Fövqəladə hallar naziri vətəndaşlarla görüşüb

**Dünən fövqəladə hallar naziri Kəmaləddin Heydərov nazirliyin Sumqayıt Regional Mərkəzində şəhərin və Qubadlı rayonunun sakinləri ilə görüşüb.**



Görüşdə müraciətlərin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Görüşə gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

## Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 798, № 10, maddə 918; 2006, № 5, maddə 408; 2007, № 3, maddə 232, № 8, maddə 765; 2008, № 1, maddə 7, № 8, maddə 719; 2009, № 3, maddə 163; 2013, № 6, maddə 654; 2014, № 2, maddə 112, № 9, maddə 1027, № 10, maddə 1220; 2015, № 7, maddə 829; 2016, № 1, maddə 45, № 6, maddə 1039, № 8, maddə 1375; 2017, № 3, maddə 353, № 8, maddə 1521, № 11, maddə 1996; 2018, № 3, maddə 436, № 9, maddə 1840; 2019, № 7, maddə 1224; 2022, № 5, maddə 471, № 8, maddə 838; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 20 fevral tarixli 2037 nömrəli və 10 mart tarixli 2063 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Əşyaların dövriyyəsinə xüsusi icazə almaq üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**2.** 2.4-cü bəndin birinci cümləsinə birinci halda "çatışmazlıqlar" sözündən sonra "(bu Qaydaların 2.1-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

**3.** 2.8-ci bəndə "təqdim etməlidir" sözlərindən sonra "(bu Qaydaların 2.1-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292; 2017, № 1, maddə 50; 2018, № 9, maddə 1840, № 11, maddə 2263; 2019, № 3, maddə 430, № 5, maddə 823; 2020, № 8, maddə 1042; 2022, № 5, maddə 471, № 9, maddə 1028; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 mart tarixli 2056 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1.12-ci, 2.1.65-ci yarımbəndlərdə, 3.1.2-ci yarımbəndin 6-cı və 12-ci abzaslarında, 3.10-cu bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

**2.** 3.2-ci bənddən "Aviasiya Təhlükəsizliyi üzrə" sözləri çıxarılsın.

**3.** 3.2.2-ci yarımbənddə "işçi orqan olan katiblik" sözləri "təmin etmək üçün Aviasiya Agentliyi onun Katibliyi funksiyasını" sözləri ilə əvəz edilsin və həmin yarımbəndin ikinci cümləsi çıxarılsın.

**4.** 3.12-ci bənddən "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41; 2019, № 1, maddə 95, № 6, maddə 1027, № 11, maddə 1702, № 12, maddə 1929; 2020, № 3, maddə 231, № 4, maddə 407, № 8, maddə 1044; 2021, № 6 (I kitab), maddə 593, № 12, maddələr 1356, 1430; 2022, № 5, maddə 459, № 11, maddə 1264) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.18-1-ci yarımbənd əlavə edilsin:

"3.0.18-1. aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlər görmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 90 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 90 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 958; 2019, № 11, maddə 1702; 2022, № 12, maddə 1436) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.19-1-ci və 3.0.19-2-ci yarımbəndlər əlavə edilsin:

"3.0.19-1. aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində fəaliyyət göstərən komissiyaların işində iştirak etmək;

3.0.19-2. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın Katibliyinin funksiyalarını həyata keçirmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2023-cü il**

## "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2087; 2017, № 1, maddə 42, № 8, maddə 1521; 2018, № 9, maddə 1840; 2022, № 5, maddə 466) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmanla təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə" üzrə:

1.1.1. 2.1.4-cü və 3.1.1-ci yarımbəndlərdə "dövlət orqanlarının" sözləri "dövlət orqanlarının və qurumlarının" sözləri ilə əvəz edilsin;

1.1.2. 4.1-ci bəndə "Azərbaycan Respublikası daxili işlər nazirinin," sözlərindən sonra "Azərbaycan Respublikası fövqəladə hallar nazirinin, Azərbaycan Respublikası xarici işlər nazirinin" sözləri və "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidməti rəisinin" sözlərindən sonra ", Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi rəisinin" sözləri əlavə edilsin, həmin bənddə "Xüsusi Dövlət Mühafizə"sözləri"Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin;

1.1.3. 5.2-ci bənd üzrə:

1. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Katibliyin funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi həyata keçirir.";

2. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Katiblik aşağıdakı vəzifələri yerinə yetirir:

5.2.1. Komissiyanın fəaliyyətini və iclasları ilə bağlı təşkilati məsələləri həll edir;

5.2.2. Komissiyanın müzakirəsinə çıxarılacaq məsələlərlə bağlı sənədləri hazırlayır, kargüzarlıq işlərini həyata keçirir, iclasların protokollarını tərtib edir, eləcə də iclasların yekun sənədlərinin layihələrini Komissiyanın sədrinə və üzvlərinə təqdim edir;

5.2.3. aidiyyəti dövlət orqanlarından və qurumlarından, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, müəssisə və təşkilatlardan iclaslarda baxılan məsələlərlə bağlı məlumat, rəy və təkliflər alır;

5.2.4. Komissiyanın qərarlarının icrası ilə əlaqədar tədbirlər görür, Komissiya tərəfindən həyata keçirilməli olan tədbirlərin monitorinqini aparır və nəticələri barədə aidiyyəti üzrə təqdim edilməsi üçün hesabatlar hazırlayır;

5.2.5. fiziki və hüquqi şəxslərin Komissiyaya daxil olan müraciətlərinə baxılmanı təmin edir;

5.2.6. Komissiyanın qərarlarının icrası məqsədilə Komissiya sədrinin tapşırıqlarını yerinə yetirir.";

1.2. həmin Fərmanla təsdiq edilmiş 2 nömrəli əlavə – "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi" aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi rəisinin müavini

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti.".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2023-cü il**

## "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599; 2009, № 3, maddə 163; 2010, № 2, maddə 80, № 7, maddə 610; 2014, № 5, maddə 477; 2016, № 7, maddə 1260, № 8, maddələr 1377, 1384; 2017, № 6, maddə 1080; 2018, № 6, maddə 1200; 2021, № 12, maddə 1351) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Fərmanla təsdiq edilmiş "Özəlləşdirilən və idarəetməyə verilən müəssisələrdə investisiya qoyuluşları üzərində nəzarətin həyata keçirilməsi Qaydaları"na aşağıdakı məzmunda 5.4-1-ci bənd əlavə edilsin:

"5.4-1. Dövlət müəssisələrinin, özəlləşdirilən müəssisə və obyektlərin yerləşdiyi dövlət mülkiyyətində olan torpaq sahələrinin başqa fiziki və hüquqi şəxslərin icarəsinə və istifadəsinə verilməsinə, təyinatının dəyişdirilməsinə, həmin torpaq sahələrində tikinti və yenidənqurma işlərinin aparılmasına razılıq alınması üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**2.** Həmin Fərmanla təsdiq edilmiş "Səhmdar cəmiyyətlərində dövlətə məxsus səhmlərin idarəetməyə verilməsi Qaydaları" üzrə:

2.1. aşağıdakı məzmunda 5.2-1-ci bənd əlavə edilsin:

"5.2-1. Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar iddiaçıdan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi iddiaçının razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya iddiaçı tərəfindən təmin edilir.";

2.2. 5.3-cü bəndin beşinci abzasına "tam həcmdə" sözlərindən sonra "(bu Qaydaların 5.2-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 326; 2008, № 6, maddə 495, № 11, maddələr 969, 980; 2013, № 6, maddə 656; 2014, № 10, maddə 1176; 2016, № 2 (II kitab), maddə 243, № 3, maddə 457, № 8, maddə 1376; 2017, № 8, maddə 1521; 2018, № 2, maddə 208, № 9, maddə 1840; 2020, № 9, maddə 1140; 2021, № 1, maddə 38; 2022, № 5, maddə 469, № 8, maddə 845; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 fevral tarixli 2019 nömrəli və 30 mart tarixli 2077 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. Daşınar əmlakın reyestrlərdə qeydiyyatı üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**2.** 2.9-cu bəndin birinci cümləsinə "çatışmazlıqlar" sözündən sonra "(bu Qaydaların 2.3-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

**3.** Aşağıdakı məzmunda 3.1-1-ci bənd əlavə edilsin:

"Reyestrlərdən məlumat almaq üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.".

**4.** 3.4.2-ci yarımbəndə "təqdim edilmədikdə" sözlərindən sonra "(bu Qaydaların 3.1-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2023-cü il**

# 45 il bundan əvvəl bu gün Azərbaycan dili rəsmi status almışdı

*Bu on ildə bizim ən böyük nailiyyətlərimizdən biri də Azərbaycan dövlət dilinin, ana dilinin hakim olmasıdır. Biz bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan milləti var, Azərbaycan dili var.*

**(Ulu öndər Heydər Əliyevin müstəqilliyimizin 10-cu ildönümünə həsr olunmuş mərasimdəki nitqindən)**



**Bu gün hansısa ziyalımızın Azərbaycan dilində danışması çox da çətin deyil. Çünki dövlət başçımız BMT tribunasından bu dildə danışır. Ancaq 1978-ci ildə – adi mənzil-kommunal idarəsində də başqa dildə danışıldığı dövrdə Azərbaycan Konstitusiyasına "xalqımızın dövlət dili Azərbaycan dilidir" fikirlərinin ifadə olunması təkcə çətin yox, həm də çox riskli bir məsələ idi. Ancaq ulu öndər Heydər Əliyev həmin çətinliyin öhdəsindən gəlmişdi. Həm də 1978-ci il Konstitusiyasında yenilik təkcə dil məsələsi deyildi.**

Tanrı elə qismət edib ki, Azərbaycan tarixində iki Konstitusiya xalqın, mətbuatın və elmi ictimaiyyətin yaddaşında "Heydər Əliyev Konstitusiyası" kimi qalmışdır. Bunlardan birincisi 1978-ci il Konstitusiyası idi ki, orada Heydər Əliyev Kremlin çox ciddi təzyiqlərinə baxmayaraq, Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olduğunu sübut edən müddəanın yazılmasına nail olmuşdu. İkinci Konstitusiya isə 1995-ci il Konstitusiyasıdır ki, bu Əsas Qanun da bilavasitə ulu öndərimizin şəxsi təşəbbüsü və iştirakı ilə hazırlandığına, çoxsaylı xarici və daxili maneələrin dəf edilməsindən sonra qətiyyətlə qəbul edildiyinə görə insanlar arasında "Heydər Əliyev Konstitusiyası" kimi tanınır.

XX əsrin 60-cı illərinin sonlarında kommunizm cəmiyyətinə sürətli keçid ideyası tədricən iflasa uğramış, 70-ci illərin əvvəllərində inkişaf etmiş sosializm cəmiyyəti üçün Əsas Qanunun işlənib hazırlanması zərurəti ortaya çıxmışdı. Uzunmüddətli müzakirələrdən sonra – 1977-ci il oktyabrın 7-də SSRİ-nin üçüncü Konstitusiyası, 1978-ci il aprelin 21-də isə Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasında respublikamızın sayca dördüncü Konstitusiyası qəbul edilmişdi. 11 bölmə, 22 fəsil və 185 maddədən ibarət bu Əsas Qanunun özündən əvvəlki konstitusiyalardan bir sıra prinsipial fərqləri var idi. İlk dəfə idi ki, Konstitusiyada insanların sağlamlığının mühafizəsi hüququ, mənzil hüququ, mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququ, ən başlıcası, yaradıcılıq azadlığı təsbit edilirdi.

Özündən əvvəlki Əsas Qanundan fərqli olaraq, 1978-ci il Konstitusiyasında təkcə Azərbaycan SSR Ali Sovetinin deyil, Ali Sovetin Rəyasət Heyətinin, Nazirlər Sovetinin, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin, Respublika Ali Məhkəməsinin də qanunvericilik hüququ təsbit edilirdi. Ən mühüm məqam isə ana dilimizlə bağlı idi. Bu, danılmaz faktdır ki, Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, qorunması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

O qədər də uzaq tarix olmadığına görə, hamı xatırlayır ki, 70-ci illərin ortalarından başlayaraq, SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirilmişdi. Dil məsələsini qabardanlar Sibirə sürgün olunurdu. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Bütün bunlara baxmayaraq, o vaxt Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdir. Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədi daşıyırdı.

Təbii ki, o dövrdə əhalinin iştirakı ilə keçirilən müzakirələr formal xarakter daşısa da milli ruhlu ziyalılar layihəyə Azərbaycan dilinin salınmamasına görə, narazılıqlarını bildirirdilər. Yenə də respublikamızın rəhbəri Heydər Əliyev həyatını riskə qoyaraq, Konstitusiya layihəsinə Azərbaycan dilinin dövlət dili olması barədə maddə salınmasını israr edirdi. Lakin Moskvadakı rəhbər xadimlər müxtəlif bəhanələr gətirərək, bunun qarşısını alırdılar. Xalqını, millətini böyük məhəbbətlə sevən ulu öndər isə inadından əl çəkmirdi. Ulu öndər yaranmış ağır vəziyyətdə SSRİ-nin o vaxtkı rəhbəri Leonid Brejnevlə danışdıqdan sonra Azərbaycan dilinin dövlət dili statusunun Konstitusiyaya salınması məsələsini, nəhayət, birdəfəlik həll edir. Ümumxalq müzakirəsinə verilmiş Azərbaycan Respublikası Konstitusiya layihəsinin 73-cü maddəsinə belə bir fikir yer aldı: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir".

Nəticədə Azərbaycan Konstitusiyası böyük tarixi şəxsiyyət Heydər Əliyevin təklif etdiyi şəkildə qəbul olundu və Azərbaycan dili dövlət dili statusu aldı. Ulu öndər bununla gələcək müstəqil dövlətçiliyin milli atributlarından birini məharətlə qorudu.

Azərbaycanın 1978-ci il Konstitusiyasındakı əsas yeniliklərdən biri də DQMV-nin dövlət hakimiyyəti və idarə orqanlarının statusunun 1937-ci il Konstitusiyasında olduğu kimi, ayrıca fəsildə deyil, Azərbaycan SSR-də yerli dövlət hakimiyyəti və idarə orqanlarının tərkibində əks etdirilməsi idi. Yəni Heydər Əliyev DQMV-yə 1937-ci ildə verilmiş statusların respublika rəhbərliyinə qaytarılmasını tələb etmiş və buna nail olmuşdu.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Ceyhun Bayramov Erika Olson ilə görüşüb

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Erika Olsonu qəbul edib.**



Görüşdə tərəflər arasında Azərbaycan-ABŞ ikitərəfli münasibətləri, bölgədə mövcud olan cari vəziyyət, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar müzakirə edilib.

Nazir Ceyhun Bayramov post-münaqişə mərhələsində Azərbaycanın Ermənistanla normallaşma, o cümlədən gələcək sülh sazişinin imzalanması istiqamətində əsas təşəbbüs irəli sürən tərəf kimi, prosesin uğurla nəticələnməsində maraqlı olduğunu bildirib. Buna baxmayaraq, qeyd edilən istiqamətlərdə Ermənistan tərəfindən prosesə maneçilik səyləri, sülh sazişinin mətni üzrə Azərbaycanın sonuncu təkliflərinə 6 həftə ərzində hələ də cavab verməməsi, bir sıra provokativ bəyanatlar və təxribatlar diqqətə çatdırılıb. Bununla yanaşı, Ermənistandan azaraq Azərbaycana keçmiş hərbçilərin qısa müddətdə Ermənistana geri təhvil verilməsi kimi etimad quruculuğu tədbirlərinə baxmayaraq, Ermənistanda Azərbaycan hərbçilərinə qarşı son zorakılığın Ermənistan tərəfindən pozucu fəaliyyətin nümunəsi olduğu qeyd edib.

Erika Olson öz növbəsində, bölgədə sülh və sabitliyin bərqərar olunmasının əhəmiyyətini, bunun üçün sülh sazişinin imzalanmasının zəruri olduğunu bildirib. ABŞ tərəfinin Azərbaycan və Ermənistan arasında ikitərəfli əsasda aparılan bu danışıqlara dəstək verməyə daim hazır olduğunu diqqətə çatdırıb.

***

**Dünən Ceyhun Bayramov həmçinin Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimovu ölkəmizdəki diplomatik fəaliyyətinin bitməsi münasibətilə qəbul edib.**

Nazir fəaliyyəti müddətində ölkələrimiz arasında münasibətlərə verdiyi töhfəyə görə səfir Serjan Abdıkarimova təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Səfir, öz növbəsində diplomatik fəaliyyəti müddətində ona göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Xalq qəzeti"***

# Azərbaycan səfirliyi Rusiya XİN-ə nota verib

**AZƏRTAC xəbər verir ki, Rusiya Dövlət Dumasının İnformasiya siyasəti, informasiya texnologiyaları və rabitə komitəsinin sədr müavini Oleq Matveyçevin "RUSARMİNFO" erməni xəbər agentliyinin efirində səsləndirdiyi yolverilməz bəyanatları ilə əlaqədar Azərbaycan səfirliyi Rusiya XİN-ə etiraz notası göndərib.**

Səfirliyin notasında "Yedinaya Rossiya" Partiyasından olan deputatın Azərbaycan və Türkiyə ilə bağlı fikirlərinin qəbuledilməz olduğu, regionda sabitliyi pozmağa yönəldiyi vurğulanıb, Ermənistan cəmiyyətində revanşist qüvvələri keçmişdə qalmış münaqişəni yenidən alovlandırmağa təhriki kimi qiymətləndirilib.

İşğaldan azad edilmiş ərazilərdə fəal şəkildə aparılan yenidənqurma işləri fonunda "Azərbaycan tərəfindən münaqişənin qızışdırılması" ilə bağlı bəyanatların cəfəngiyat olduğu qeyd edilib.

Bildirilib ki, 30 illik işğalın ağır nəticələrinə baxmayaraq, ilk olaraq Ermənistanla dövlətlərarası münasibətlərin normallaşdırılması prosesinə təşəbbüs göstərən, dövlətlərin ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında sülh müqaviləsinin imzalanmasını nəzərdə tutan sülh gündəliyinin təşviqini davam edən məhz Azərbaycandır.

Azərbaycan tərəfi Rusiyanın hakim partiyasının nümayəndəsinin bu cür bəyanatlarının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üçün səylər göstərən Rusiyanın vasitəçiliyinə kölgə saldığını bildirib. Oleq Matveyçev Azərbaycan ilə Rusiya arasında 2022-ci ilin fevralında imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə barədə xəbərsiz ola bilməz və onun bu cür bəyanatları həmin sənədin müddəalarının pozulması deməkdir. Hakim partiyanın nümayəndəsi olan deputat öz bəyanatlarında məsuliyyətli olmalı və Rusiya Federasiyasının rəsmi mövqeyini rəhbər tutmalıdır.

Rusiya parlamentində informasiya siyasətinə cavabdeh deputatın Azərbaycana qarşı hücumlar üçün informasiya platforması olan, Rusiyada etnik zəmində millətlərarası düşmənçiliyi qızışdıran erməni saytına müsahibəsi onun sifarişli və imperativ xarakter daşımasından xəbər verir.

# Ermənistanın Qərbə xəyanəti

## Yoxsa İrəvanın Moskvaya "gizli dəstəyi"

**Ermənilər həmişə onları himayə edənlərə xilaf çıxıblar. Çox da uzaq olmayan tarixdə bununla bağlı yetərincə fakt var. Osmanlı İmperiyası dönəminə nəzər salsaq, erməni qövmünün təbəəsi olduğu dövlətə qarşı nə cür fitnə-fəsadlar törətdiyini söyləyə bilərik. Qərbin Osmanlını dağıtmaq planlarında hərəkətverici təxribatçı rolunda iştirak etmiş ermənilər SSRİ dövründə də xəyanətkar əməllərindən qalmayıblar. Onlar həmin dövrdə müxtəlif yollarla Azərbaycana məxsus tarixi torpaqları ələ keçiriblər, müxtəlif saxta sənədlərlə "özününkü"ləşdiriblər. Azacıq müqavimətlə üzləşdikdə isə haray-həşir qaldırıblar. Bu baxımdan ötən əsrin ikinci yarısından sonra Qarabağın müxtəlif bölgələrində, o cümlədən Əsgəranda, Xankəndidə baş verənləri yada salmaq kifayətdir.**



Nəzərə alaq ki, həmin mərhələdə yaşananlar, erməni xalqına xoş münasibəti ilə seçilən azərbaycanlılara qarşı naşükürlük və xəyanət səhnələri ilə də yadda qalmaqdadır. Yeri gəlmişkən, xalqımızın total erməni xəyanəti ilə üzləşməsinin başlanğıc tarixi 195 il əvvələ – 1828-ci ilin Türkmənçay müqaviləsinə gedib çıxır. Məhz həmin müqavilədən sonra, konkret olaraq, 1830-cu ildən sonra ermənilərin Suriyadan və İrandan əzəli Azərbaycan torpaqlarına köçürülməsinə başlanıb. Beləliklə, ümumilikdə, Qafqaz bölgəsində sonradan qlobal motivlərə söykənmiş böyük xəyanətin əsası qoyulub.

Müstəqillik illərində biz Rusiyanın erməni avantürizminin əsiri olduğunu gördük. Erməni millətçiləri Moskvanın köməyi ilə Azərbaycan torpaqlarına təcavüz etdilər, ərazilərimizi 30 ilə yaxın müddətdə işğalda saxladılar. Nəhayət, 2018-ci ildə Ermənistanda inqilab baş verdi. Əslində, bu inqilab yox, böyük ölçüdə anti-Rusiya çevrilişi idi.

**Bəli, ermənilər Rusiyadan onlara ayrılan payın azlığını düşündülər.** Belə hesab etdilər ki, Qərbdəkilər daha çoxunu verəcəklər. Yəni, 2018-ci ildə Ermənistanda baş verənlər, yüksək səslə, pafosla təqdim edildiyi kimi, heç də inqilab, filan deyildi. Daha böyük ölçüdə götürsək, hazırkı baş nazir Nikol Paşinyanın iqtidara gəlməsi ilə nəticələnmiş hakimiyyət dəyişikliyi, əslində Ermənistanın Rusiyaya xəyanəti reallığını doğurmuş üsyan idi. Lakin xəyanətin cəzası ağır oldu. Erməni millətçiliyinin Qarabağ avantürasına sarsıdıcı zərbə vuruldu. Söhbət 44 günlük müharibə zamanı Ermənistanın Azərbaycan tərəfindən darmadağın edilməsindən gedir.

Qeyd edək ki, Paşinyanadək Rusiyaya sadiq qalan erməni liderlər Bakıya münasibətdə açıq demarş xətti götürmürdülər. Bilirdilər ki, bunu etmək oyun qaydalarının pozulması kimi qiymətləndiriləcəkdir. O qaydaların ki, əsası həm də Moskva tərəfindən qoyulmuşdu. Beləliklə, Rusiyaya xəyanət yolu tutmuş, üzünü Qərbə çevirmiş Ermənistanın eyforiya dövrünü yaşayan rəhbərliyi belə düşündü ki, "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verərkən də Qərb onun arxasında dayanacaqdır. Yəni, Moskva dayanmasa da olar...

Bəli, Paşinyan administrasiyası ölkəni müharibə rüsvayçılığına gətirdi. Müharibədən ötən iki il yarıma qədərki müddətdə biz Ermənistan iqtidarının qeyri-ordinar hərəkətlərinə şahidlik etməkdəyik. Paşinyan iqtidarı 44 günlük müharibə ilə Cənubi Qafqazda formalaşmış və özü üçün sərfəli olmayan reallıqları dəyişmək üçün çeşidli siyasi kombinasiyalara əl atmaqdadır. Lakin, göründüyü qədərilə, cəhdlərinin heç bir faydası yoxdur. "The New York Times" qəzetində yayımlanmış yazı isə onu göstərir ki, Ermənistan özü üçün dolaşıq olan labirintdə indi də Rusiyaya yarınmaq yolu tutmaqdadır. Yəni, üzdə Qərbpərəstlik, altda Moskvaya xidmət. Yazımız həm də bu barədədir.

**Başlayaq ondan ki:** "The New York Times" qəzeti ABŞ-ın və Avropa İttifaqının yüksək vəzifəli vergi və ticarət rəsmilərinin bu il martın 24-də keçirilmiş görüşündə səslənmiş faktları açıqlayıb. Burada bir sıra maraqlı məqamlar var. O cümlədən, Ermənistanla bağlı. Sən demə, Ermənistan vasitəsilə Rusiyaya satılan çiplərin və digər elektron komponentlərin sayında kəskin artım müşahidə olunub. Diqqət yetirək, bu, dünyanın anti-Rusiya mövqe tutduğu bir vaxtda baş verir. Özü də söhbət Rusiyanın Ukraynaya atdığı raketlər də daxil olmaqla, silahların inkişafı üçün kritik hesab olunan yüksək həssas kateqoriyalı çiplərdən və digər elektron cihazlardan gedir. Daha doğrusu, onların kütləvi satışından.

Bir qədər də konkretləşdirək. Qəzetdə bildirilir ki, ABŞ Sənaye və Təhlükəsizlik Bürosunun məlumatına görə, 2022-ci ildə Ermənistan 2021-ci ilə nisbətən, ABŞ-dan 515, Avropa İttifaqından isə 212 faiz çox çip və prosessor idxal edib. İlk baxışdan da böyük rəqəmdir. Görünür, elə buna görə satışı həyata keçirənlər məsələnin üzərində dayanmağa qərar veriblər. Doğrudan da, balaca Ermənistanın o qədər avadanlıq nəyinə lazımdır? Suala cavab özünü gecikdirmir. Sən demə, Ermənistan həmin məhsulların 97 faizini sonradan Rusiyaya ixrac edibmiş. Yəni, Qərbpərəst olduğunu hər addımında bəyan edən ölkə Moskvanın düşdüyü hazırkı durumu özünə mənfəət yeri kimi görüb.

Əlbəttə, İrəvan rəsmiləri bu yolla ölkəyə qazanc gətirdiklərini iddia edə bilərlər. Heç şübhəsiz, Qərbdən gələn maddi xeyirin azlığından da şikayətlənib, necə deyərlər, pis yola düşdüklərini bildirmələri mümkündür. Xəyanəti arqumentləşdirmək onlar üçün su içimi kimi şeydir. Ancaq fakt faktlığında qalır. Güman edirik ki, erməni avantürizminə siyasi sərmayə yatıranlar yaranmış əcaib etimad durumunu nəzərə alacaqlar. Amma məsələ yalnız bununla məhdudlaşmır.

"The New York Times" yazır ki, 2022-ci ildə Vyetnamdan Ermənistana ixracat 380, Yaponiyadan 252, Qazaxıstandan 201, Hindistandan 190, Fillipindən 181, Cənubi Koreyadan 102 faiz artıb. Həmin ildə ölkəyə Avropa İttifaqından ixracatın isə cəmi 70 faiz çoxaldığı vurğulanır. Ortaya ziddiyyət çıxır. Necə olur ki, üzünü Qərbə çevirmiş Ermənistana Aİ-dən ixracatın həcmi ilə sadaladığımız ölkələrdən olan ixracatın həcmi arasında belə kəskin fərq yaranıb? Yəqin, cavabı təxmin etdiniz. Adları çəkilən ölkələr daha çox elektron məhsullar üzrə ixtisaslaşıblar. Aİ isə bu baxımdan bahalı bazardır, oradan daha çox digər məhsullar gətirilir. Yenə də Ermənistanın əhali və ərazi baxımından kiçikliyinə diqqət yetirək və Asiya ixracatının spesifikliyi üzərində dayanaq. Deməli, burada da Ermənistanın "tranzit" əhəmiyyəti vurğulanmalıdır. Belə qənaətə gəlmək mümkündür ki, ölkə Rusiyanın sanksiyalardan yayınmasında əsas mərkəzlərdən biridir.

Onu da bildirək ki, Ermənistan sanksiya altında olan ölkələrə "kömək göstərmək" təcrübəsinə malikdir. Axı, uzun illərdir sanksiya altında olan İran xaricdən malları, məhz, Ermənistan vasitəsilə alırdı və yenə də almaqdadır. Bu mənada Paşinyan administrasiyasının özündən əvvəlki Koçaryan-Sarkisyan hakimiyyətininin "ənənəsini" davam etdirdiyini söyləyə bilərik. Pul olan yerdə sədaqətin ikinci plana keçməsi erməni xislətindən irəli gələn "göstəricidir".

Bütün qeyd edilənlərin fonunda bir maraqlı məqam da var. Diqqət yetirək, hazırda "The New York Times" Ermənistanın Rusiyanın sanksiyalardan yayınması istiqamətində mühüm "tranzit" olduğunu yazır. Əvvəlki illərdə İrəvanın "tranzit" rolundan niyə söhbət açılmırdı? Bəlkə də açılırdı, sadəcə, məsələ çox da ictimailəşdirilmirdi. Çünki Paşinyana qədər rəsmi İrəvanın mövqeyi bilinirdi. Yəni rusпərəst idi və onun İrana gizli köməyi fövqəladə hal sayılmırdı. Moskva da bunu ermənilərin əlavə qazanc yeri kimi görürdü. Həm də çox güman, Rusiya dairələri Ermənistanı lazımınca dolandırmadıqlarını anlayırdılar. Başqa sözlə desək, dolandırmırıqsa, dolanmasına mane olmayaq. Bəs indi? Ermənistan indidəmi dolanmır?

**Əlbəttə, söhbət dolanıb-dolanmamaqda da deyil.** Başlıca məqam erməni xislətinə xas tamahkarlıqla və onun doğurduğu xəyanətdədir. Əgər, hazırkı Hayastan hakimiyyətinə qədərki erməni iqtidarı "gizli kömək" məntiqinə baş vurdusa, ölkəni öz təsir dairəsinə salmaq istəyən Qərb isə düşünürdü ki, məsələyə göz yummaq olar. Məsələ dedikdə, söhbət sanksiya tətbiq olunmuş (o cümlədən, hərbi istifadə üçün nəzərdə tutulmuş) malların saxta sənədlərlə və gizli yollarla ötürülməsindən gedir.

İndi Ermənistan Qərbin təsiri altındadır. İkincinin təmsilçiləri yaxşı görürlər ki, İrəvan İrana sanksiyalardan yayınmağa yardımına bənzər "yardımları" Rusiyaya göstərir. Sual yaranır: nə üçün ABŞ və Aİ tərəfindən Ermənistana təzyiq yoxdur? Nəyə görə onun hərəkətlərinə göz yumulur? Bəlkə Paşinyan administrasiyasının üzünü Moskvaya çevirməsindən ehtiyat edilir? Yoxsa, Ermənistana hər şey olar? Suallar çoxdur, özü də həddən artıq. Hətta ola bilər ki, İrəvan Qərbi borclu da çıxarsın və desin ki, Azərbaycanla mübarizədə ona lazımi qədər siyasi və hərbi dəstək göstərilmir.

**Hər halda, fakt faktlığında qalır.** Ermənistan Rusiyanın Qərbin sanksiyalarından yan keçmək üçün əsas mərkəzlərdən biridir. "The New York Times"da gedən yazı bu reallığın beynəlxalq ictimaiyyətə sızdırılmasıdır. Demək çətindir ki, sızdırılmada məqsəd nədir. Qərb Ermənistana münasibətdə sərt davranmaq istəyir, yaxud onun anti-Azərbaycan və anti-Türkiyə ritorikasını yumşaltmaq niyyətindədir? Bu kimi məqamlara aydınlıq gətirmək müşkil görünür.

Ancaq "The New York Times"ın gündəmə gətirdiyi məsələ fonunda ortaya daha böyük mənzərə çıxır. Belə qənaət formalaşır ki, Qərbin Rusiya ilə mübarizədə Ukraynaya dəstəyi ilə bağlı görüntü qeyri-səmimidir. Əgər bu görüntünün ziyanlı tərəflərini, daha doğrusu, Qərbə inamın sarsılması perspektivini düşünənlər varsa, o zaman Ermənistana qarşı da sanksiyaların tətbiqi gündəmə gəlməlidir. Ən azı Qərb ölkələri özlərinin sərt mövqelərini bildirməlidirlər. Bildirəcəklərmi, yoxsa, erməni xəyanətinə göz yumacaqlar. Bunu zaman göstərəcək.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# İrəvanın rəğbət ünvanı tez-tez dəyişir

**Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra Ermənistan–Rusiya münasibətlərində soyuqluq yarandığı heç kimə sirr deyil. Bu soyuqluq 44 günlük Vətən müharibəsi günlərində və ondan sonra özünü daha aydın hiss etdirməyə başlayıb.**



Rusiyanın İrəvandakı səfirliyinin sifarişi ilə bu yaxınlarda Ermənistanda keçirilən ictimai rəy sorğusunun nəticələri iki ölkənin münasibətlərində problemlərin azalmadığını, əksinə, artan xətt üzrə yüksəldiyini göstərir. Belə bir sorğunun keçirilməsi haqda "Hraparak" qəzeti öz mənbələrinə istinadən məlumat yayıb. Qəzet yazır ki, sosioloji sorğunun nəticələri Rusiya Federasiyasına münasibət baxımından, yumşaq desək, biabırçı olub: "Əgər 2018-ci ilin məxməri inqilabından əvvəl Ermənistan vətəndaşlarının 70 faizdən çoxu strateji tərəfdaşa müsbət münasibət bəsləyirdisə, hazırda bu rəqəm az qala iki dəfə azalıb və 40 faiz təşkil edir".

Qeyd edilib ki, bu fakt Kremldə ciddi narahatlığa səbəb olub. Lakin hələlik orada nə edəcəklərini bilmirlər və kəskin tədbirlər görməyə tələsmirlər. Çünki sorğu nəticəsində Ermənistan vətəndaşlarının Qərbə münasibəti də məlum olub. Qərbə münasibətdə də kəskin artımın olmadığı qeydə alınıb. Sorğunun nəticələrinə görə, bununla yanaşı, Ermənistan vətəndaşları arasında İrana etimadın səviyyəsi artıb.

**Rəy sorğusu bir sıra mətləbləri üzə çıxarmaq baxımından da maraq doğurur.** Məlumdur ki, ruslar ermənilərə hər zaman böyük yaxşılıqlar ediblər. İstər çar Rusiyası, istər RSFSR, istərsə də Rusiya Federasiyasının etdiyi bu yaxşılıqlar ölçüyəgəlməzdir. Əgər ikinci Rusiya-İran müharibəsindən sonra İrandan 35560, Türkiyədən isə 21666 erməninin bu bölgəyə köçürülməsi, ardınca Azərbaycan torpaqlarında onlara erməni vilayətinin yaradılması çar Rusiyasının xidmətidirsə, Zəngəzurun 1920-ci ildə Ermənistana peşkəş edilməsi Sovet Rusiyasının əməlidir. Müasir Rusiya Federasiyası da Ermənistana və ermənilərə çox təmənnasız yaxşılıqlar edib. Atalar "iştah diş altındadır" – deyib. İştah o qədər böyüdü ki, haylar 44 günlük Vətən müharibəsi dövründə Rusiyanın onların əvəzindən döyüşməsi xülyasına düşdülər. Bunu Rusiyanın Gümrüdə dislokasiya olunmuş 102 saylı hərbi bazasının, yaxud Moskva ilə birgə təmsil olunduqları Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının etməsini istədilər. Onların Rusiyadan hazırkı narazılığının kökündə də məhz bu dayanır. Haylar hazırda 102 saylı bazanın ölkədən çıxarılması mövzusunda diskussiya aparırlar. Bu gün Ermənistanda daha çox hakimiyyət tərəfindən razılıq, təsdiq almış partiyalar, siyasi ekspertlər, politoloqlar, hərbi mütəxəssislər Rusiya əleyhinə öz fikirlərini rahatlıqla söyləyirlər. Ancaq 2018-ci ildən öncə – Sarkisyan-Koçaryan dövründə biz bunu müşahidə edə bilməzdik.

Zənnimizcə, Ermənistanda Rusiyaya münasibət yaxın gələcəkdə daha da pisləşəcək. Atılan müəyyən addımlar, Qərb moderatorluğunda Azərbaycanla münasibətlərin normallaşmasına dair cəhdlər və digər hallar, eləcə də üçtərəfli Bəyanatın tələblərinin yerinə yetirilməməsi birbaşa olaraq Ermənistan ictimai fikrinə də təsir göstərir. Bu baxımdan gələcəkdə burada Rusiyaya münasibətin kəskinləşəcəyi gözləniləndir.

Buna paralel olaraq ermənilərin İrana münasibətinin yaxşılaşması da səbəbsiz deyil. Əfsuslar olsun ki, yaxın qonşumuz İran son vaxtlar Ermənistanla münasibətləri genişləndirmək yolunu tutub. Ötən ilin oktyabrında Qafan şəhərində tələm-tələsik İranın baş konsulluğunun açılması da bunun göstəricisi sayıla bilər. İran Ermənistanın ərazi bütövlüyünün qorunmasını özü üçün "qırmızı xətt" elan edib. Eyni zamanda, İran–Azərbaycan münasibətlərində son vaxtlar müşahidə olunan gərginlik də emənilərin İranla bağlı etimad indeksinin yüksəlməsinə səbəb olub. Haylar necə deyərlər, "düşmənimin düşməni mənim dostumdur" prinsipindən çıxış edirlər. Bu gün İranla Ermənistan arasında çox sıx iqtisadi-siyasi münasibətlər var, mədəni-humanitar əlaqələr inkişaf etdirilir. Tehranla İrəvanın qardaşlaşması da buna bir nümunədir.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

*Ekspert rəyi*



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Ermənistanda mütəmadi olaraq, bu tipli sorğular keçirilir. Əsas məsələ sorğunun kimlər tərəfindən sifariş olunmasıdır. Adətən, Ermənistanda bu cür sorğuları ABŞ-ın ictimai rəyin öyrənilməsi üzrə "Gallup International" institutu keçirir. Ermənistanın dostları və düşmənləri ilə bağlı mən də müxtəlif təhlillər aparmışam. Dövri şəkildə bu cür dəyərləndirmələr olur. Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra atdığı addımlar, irəli sürdüyü fikirlər daha çox Rusiyaya qarşı demarş xarakteri daşıyır. Eyni zamanda, Qərblə yaxınlaşmanı da nəzərdən keçirir. Lakin Vətən müharibəsindən sonra Ermənistan ictimai rəyində Rusiyaya etimad tam aşağı düşüb. Biz bunu sorğu keçirilmədən, erməni respondentlərə sual ünvanlamadan ekspertlərin fikirlərində, sosial şəbəkə seqmentində, teleqram kanallarında izləyə bilirik.

Maraqlı məqam ondan ibarətdir ki, Ermənistanda sorğuya cəlb olunanlar həm də Qərbə etimadın yüksəlmədiyini ifadə ediblər. Bu isə onu deməyə əsas verir ki, Rusiya–Ukrayna müharibəsinin gedişatı, eləcə də hərbi əməliyyatlar teatrında baş verənlər Ermənistan vətəndaşlarında müəyyən suallar doğurur. Onlar hələlik qəti şəkildə Rusiyadan imtina edib Qərbə doğru meyillənmək kursu götürməyiblər. Bu gün Qərb texnologiyalarının Rusiyaya ötürülməsində əsas vasitəçi dövlət də elə Ermənistanın özüdür. Bunu bədnam qonşumuzun iqtisadi göstəricilərinə nəzər salanda da görürük. İqtisadi dövriyyə, ticarət dövriyyəsi ilə bağlı hazırkı mənzərə bunu deməyə əsas verir.

İrana gəldikdə isə qeyd edə bilərəm ki, "Ermənistanın təhlükəsizliyi Tehranın təhlükəsizliyidir" kimi çox açıq bəyanatlar haylar arasında İrana münasibəti müsbətə doğru müəyyən qədər dəyişib. Eyni zamanda, "Shahed" PUA-larının hərbi əməliyyatlar teatrında göstərdiyi performans və Zəngəzur dəhlizi ilə bağlı Tehranın qəti mövqeyi daha çox İranla həmsərhəd bölgələrdə ruh yüksəkliyinə gətirib çıxarıb. Odur ki, İranın bu gün atdığı addımlar, Azərbaycanla zaman-zaman düşmənçilik həddinə qalxan ritorika, ilk növbədə, Ermənistanda respondentlərin fikirlərinə, ictimai rəyə müsbət təsir göstərən bir məqamdır. Şübhəsiz ki, bu da sorğunun nəticələrində özünü göstərib.

# Sülh, yoxsa hərb?

## Bu dilemma Ermənistan hakimiyyətinin başı üzərində Damokl qılıncıdır

**Rəsmi Bakının sülh müqaviləsi üzrə təkliflərinə 45 gündür cavab verməyən Ermənistan rəhbərliyi, bu, azmış kimi, məntiqsiz və arqumentsiz açıqlamaları ilə danışıqlar prosesinə mane olur, sülh müqaviləsinin mətninə beynəlxalq hüquqa zidd müddəalar daxil etməyə cəhdlər göstərir və müxtəlif bəhanələrlə prosesi uzatmağa çalışır.**

Sülh sazişinə aparan yolda qərarsızlığını və qətiyyətsizliyini nümayiş etdirən Hayastanın başbilənlərinin sülhdən və hərbdən başqa seçim variantının qalmadığını anlamaları üçün Bakı daha hansı siyasi ritorikadan istifadə etməlidir? Axı, bu günə qədər də Azərbaycan dövlət başçısının İrəvanın diqqətinə çatdırdığı sözü aydın, təklifi konkret, təşəbbüsləri isə xoşməramlı olub. Və onu da xüsusi olaraq vurğulayaq ki, bu təşəbbüsləri müharibədən qalib çıxmış ölkənin məğlub duruma düşmüş qarşı tərəfə jesti kimi dəyərləndirmək lazımdır. Onların əlində xəbərsiz kimi davranan İrəvan sülhpərvər çağırışlara gözlənilən əməli addımlarla deyil, budəfəki kimi, saxta, təhrifçi mesajlarla reaksiya bildirmək, həm də dünya ictimaiyyətinə dezinformasiya ötürmək yolunu tutub.

Artıq sizin kim olduğunuzu təkcə regionda deyil, aldatmağa çalışdığınız həmin dünyanın hər tərəfində yaxşı bilirlər. İki il beş ay əvvəlki müharibədə biabırcasına uduzduğunu hələ də qəbul edə bilməyən Hayastanın daşnak-revanşist qüvvələrinin təhriki ilə Qarabağ iqtisadi rayonumuzda, şərti sərhəddə hərbi və bundan nəticə çıxarmaq üçün kifayət qədər vaxtları vardı. Artıq vaxt tükənib, səbir kasası da dolub.

* * *

Azərbaycan Prezidenti cənab İlham Əliyev aprelin 18-də AzTV-yə verdiyi müsahibəsində həm İrəvana, həm Qarabağın erməni icmasına, həm də orada məskən salmış separatçı tör-töküntülərə ciddi ismarıclar göndərdi. Bundan əndişələnən Ermənistan XİN tələsik bəyanatla çıxış edib. Cənab Prezidentin bölgədəki mövcud reallığa söykənən sərt siyasi tezislərini, həmişə olduğu kimi, özünəməxsus şəkildə interpretasiya etməyə çalışan İrəvan özünü sülhpərvər tərəf kimi göstərməklə yenə də siyasi riyakarlıq nümunəsi sərgiləyib. Azərbaycan XİN Ermənistan XİN-in təhriflə dolu növbəti bəyanatına verdiyi şərhində İrəvanın diplomatik yöndən sərsəm açıqlamasını qətiyyətlə rədd etdiyini bildirib. Azərbaycanda ermənifobiya təzahürlərinin müşahidə edildiyindən dəm vuran İrəvanın psevdodiplomatlarına XİN-in cavabı arqumentli və birmənalı olub: "Azərbaycana qarşı nifrət zəminində irqi ədavətin təşviqini davam etdirən, nifrət zəminində hərəkət edən şəxslərin və etnik-milliyyətçi qrupların fəaliyyətini alqışlayan və belə hərəkətlərə görə cəza verməyən, Azərbaycan əsirlərinə qarşı vəhşiliklər, kütləvi qırğınlar törədən Ermənistanın Azərbaycanın nifrət zəminində hərəkətlər etdiyi iddiasının heç bir əsası yoxdur".

Ermənistan XİN-in bəyanatında yer alan Qarabağın erməni sakinlərinin "beynəlxalq hüquqları" kimi cəfəng iddiaya qarşı "Azərbaycan ərazisində Azərbaycan qanunları çərçivəsində yaşamaq istəyən hər bir şəxsin hüquq və azadlıqlarının təmin olunmasına zəmanət verildiyi" bildirilən Azərbaycan diplomatiya idarəsinin şərhində həm də rəsmi Bakının bu məsələdə dəyişməz mövqe tutduğu hayların diqqətinə bir daha çatdırılır.

* * *

Əli hər tərəfdən üzülən İrəvanın son vaxtlar yersiz və səbatsız şəkildə beynəlxalq hüququn prinsiplərinə öz arşını ilə yanaşması, tövsif etməsi, bu müstəvidə Bakıya nələrisə "sübut eləməyə" girişməsi adət halını almaqdadır. Bəs, dünyanın canlı seyr etdiyi idman yarışının açılışında Azərbaycan Bayrağı yandırılanda, dumanlı havada təsadüfən sərhədin o üzünə keçən və əsir götürülən əsgərimiz haylar tərəfindən vəhşicəsinə döyüləndə niyə beynəlxalq hüququn insan haqlarına, əsirlərlə davranış qaydalarına aid konvensiyalar yada düşmürdü? Belə məlum olur ki, beynəlxalq hüququn elementar prinsip və qaydalarından, guya, siyasi təxribatlarını bundan sonra da davam etdirəcəksə, İrəvan iqtidarı indidən öz fatihəsini oxusun. Çünki sərlövhəyə çıxardığımız sual tezliklə dəqiq cavabını almasa, aqibətlərinin proqnozunu haylar özləri verməli olacaqlar. Amma bu dəfə pis yerdə axşamladıqlarını və hənanın da tamamilə başqa cür olduğunu unutmasınlar.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***




*Ekspert rəyi*



**Fərid ŞƏFİYEV,**
**siyasi şərhçi**

Bəli, Azərbaycan Xarici İşlər Nazirliyinin martin əvvəllərində İrəvana təqdim etdiyi yeni sülh paketinə hələlik heç bir cavab verilməyib. Yaxın zamanlarda təkliflərimizə hər hansı reaksiyanın olacağı gözlənilmir. Çox güman ki, rəsmi İrəvan gələn ay Türkiyədə keçiriləcək prezident və parlament seçkilərinin nəticələrini gözləyir. Ümumiyyətlə, Paşinyanın yürütdüyü taktika bu məsələləri təxirə salmaqdır. Düzdür, özünün sonuncu açıqlamalarında Azərbaycanın ərazi bütövlüyünü, eləcə də Qarabağ üzərində suverenliyini tanıyacağından bəhs edib. Amma bu heç də o demək deyil ki, sabah İrəvan dediyinə əməl edəcək. Dəfələrlə müşahidə etmişik ki, əvvəlcə bir bəyanat verirlər, az sonra ondan geri çəkilirlər. İndiki məqamda da, ola bilsin ki, biz eyni mənzərə ilə rastlaşacağıq.

Ermənistanın əsir götürdüyü bizim iki hərbçimizlə bağlı məsələyə gəldikdə isə, bildiyiniz kimi, onlara qarşı ittiham irəli sürülüb, cinayət işi qaldırılıb. Aydın məsələdir ki, İrəvanın əsgərlərimizin boynuna qondarma cinayət əməlini qoymaqda məqsədi onları Azərbaycanda saxlanılan erməni hərbi cinayətkarla, diversantlarla dəyişdirməkdir. Bu isə beynəlxalq hüquqa, eləcə də BMT-nin müvafiq konvensiyalarının tələbləri ilə bir araya sığmayan hərəkətdir.

# Erməniпərəst konqresmenlərin saxta ittihamları

## *ABŞ-da uydurma erməni soyqırımı yenidən gündəmə gətirilib*

**Dünən Vaşinqtonda ABŞ Konqresinin erməni məsələsi üzrə qrupu qondarma erməni genosidinin 108-ci ildönümünə həsr olunan iclas keçirib. Qrupun sədr müavini Adam Şiff Azərbaycan hökumətinin əleyhinə növbəti dəfə böhtan və iftiralar yağdırıb.**

"Armenpress"in verdiyi məlumata görə, A.Şiff ABŞ hökumətini Azərbaycan hakimiyyətini dəstəkləməkdən imtina etməyə çağırıb. Onun sözlərinə görə, iki il əvvəl Konqresin və Prezident Baydenin erməni soyqırımını tanıması "insan haqları və ədalətin qələbəsidir".

A.Şiff sonra hazırda erməni xalqının guya əzablar çəkdiyini vurğulayaraq bildirib ki, onlar, yəni konqresmenlər ermənilərə (oxu--erməni millətindən olan milyonerlərə --müəllif) vəd verməkdən daha çox iş görməli, heç vaxt bu "dəhşətli soyqırımı hadisələri"ni yaddan çıxarmamalıdırlar. Elə etməlidirlər ki, bu qəbildən olan olaylar tarixdə bir daha təkrar olunmasın.

Konqresmenin sözlərinə görə, Cənubi Qafqazda ermənilərə qarşı təhdidlər hələ də bitməyib, əksinə guya son aylar ərzində Azərbaycanın Ermənistana və "Artsax"a düşmənçiliyi özünün ən yüksək səviyyəsinə çatıb. "Emosional" hisslərə qapılan konqresmen sonra deyib ki, o, heç vaxt erməni xalqının taleyi üçün indiki qədər narahat olmayıb. Onun fikrincə, Azərbaycan Ermənistana və "Artsax"a qarşı genişmiqyaslı hücuma keçə bilər.

Erməni sevdalısı olan konqresmen sonra iddia edib ki, guya Azərbaycan hazırda Ermənistan ilə sərhəddə çox sayda silahlı qüvvələr toplayıb. "Artsax"ın isə çıxış yolu kimi seçim imkanı yoxdur. Mövcud vəziyyətdə erməni əhalisi ya ərazidən qaçmalı, ya da orada həyatları üçün təhlükəli şəraitdə qalaraq yaşamalıdır.

A.Şiff bütün bu hədyanları səsləndirdikdən sonra ABŞ hökumətini Azərbaycana qarşı sərt sanksiyalar tətbiq etməyə və Laçın yolunu təcili olaraq açmağa çağırıb. Bu məqamda cənab A.Şiffdən soruşmaq lazımdır ki, Ermənistan silahlı qüvvələri qonşu, suveren Azərbaycanın torpaqlarını 30 ilə yaxın işğal altında saxlayanda, yerli azərbaycanlı əhaliyə qarşı dəhşətli qətliamlar törədəndə, niyə o, səsini çıxarmırdı? Bəlkə, amerikalı siyasətçi erməni vandallarının Qarabağ ərazisində törətdiyi, bütün dünyanı dəhşətə gətirən vəhşiliklər barədə də eşitməyib?

Konqresin həmin erməni qrupu üzrə həmsədri Frenk Pallone isə bildirib ki, onun fikrincə, Laçın yolunun bağlanması ermənilərə qarşı 1915-ci ildə baş verən "genosid"in davamıdır. "Artsax"dakı əhalinin "halına acıyan" konqresmen onların ərzaq və dərman qıtlığı ilə üzləşdiklərindən "narahatdır".

Əlbəttə, bunlar hamısı yalan və iftiradır. Azərbaycanlı ekofəallar Laçın-Xankəndi yolunda humanitar yüklü avtomobillərin hərəkətinə heç bir maneəçilik törətmir. Onlar tam haqlı olaraq faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarı əleyhinə çıxış edirlər və öz məqsədlərinə çatana qədər etiraz səslərini ucaldacaqlar.

Yeri gəlmişkən, Frenk Pallone ölkəmizə qarşı ittihamlarında hətta həmkarı Adam Şiffdən də uzağa gedib. O, iddia edir ki, Azərbaycan Ordusu təkcə "Artsax"a qarşı deyil, yeni ərazilər tutmaq niyyəti ilə Ermənistan ərazisinə də hücumlar təşkil edir.

Bu da açıq-aşkar böhtandır. Həqiqət budur ki, xalqımızın igid əsgər və zabitləri 2020-ci ilin payızında əks-hücuma keçərək öz doğma torpaqlarını istilaçılardan azad edib. Azərbaycan dövləti və xalqı açıq döyüşdə öz ərazi bütövlüyünü bərpa edib. Bu, müstəqil Azərbaycanın müstəsna hüququdur.

Konqresin erməni məsələsi üzrə qrupunun üzvləri ABŞ Dövlət Departamentinə müraciət edərək Laçın yolunun bloklanmasının "yolverilməz" olduğunu bildiriblər və Birləşmiş Ştatlar hökumətini bu istiqamətdə qətiyyətli addımlar atmağa çağırıblar.

Qəribədir, Frenk Pallonenin yadına hardansa ABŞ-ın da üzvü olduğu, bir vaxtlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məqsədilə yaradılan ATƏT-in "Minsk qrupu" düşüb. Bildirib ki, Vaşinqtonla bərabər həmin "Minsk qrupu"nun digər həmsədrləri, yəni Fransa və Rusiya da Azərbaycana qarşı təzyiqləri artırmalıdır.

Onun sözlərinə görə, kifayət qədər təzyiq göstərilərəsə, guya "Artsax"la Ermənistanı birləşdirən Laçın yolu açıla bilər və bu "erməni anklavı" son nəticədə Ermənistan torpağı kimi tanına bilər. Yox, cənab Pallone! Səhv edirsiniz! "Artsax" adlı qondarma respublika çoxdan mövcud deyil. Azərbaycan dövləti və xalqı öz əzəli və əbədi torpağının bir qarışını da heç bir ölkəyə güzəştə getmək fikrində deyil.

***M. HACIXANLI, "Xalq qəzeti"***

*Ekspert rəyi*



**Atamoğlan MƏMMƏDLİ,**
**Bakı Dövlət Universitetinin professoru**

ABŞ Konqresində fəaliyyət göstərən erməni qrupunun üzvlərinin xalqımızın və dövlətimizin ünvanına atdıqları ağır böhtanlar hamı kimi məni də çox hiddətləndirib. Hesab edirəm ki, belə məsuliyyətsiz çıxışlar böyük bir dövlətin bölgədə apardığı siyasətə zərbə vurur.

Bir tarixçi alim kimi, tam məsuliyyətlə deyə bilərəm ki, tarixdə "erməni soyqırımı" adlı hadisələr olmayıb. Ermənilər hələ Birinci Dünya müharibəsi başlayan zaman vətəndaşları olduqları Türkiyəyə xəyanət edilər.

Belə ki, səfərbərliyin elan olunması ilə Osmanlı dövləti ərazisində yaşayan ermənilərin böyük bir qismi Çar Rusiyasının, bir qismi isə İngiltərə və Fransanın tərəfinə keçdilər.

Danılmaz faktlar sübut edir ki, ermənilər həmin gərgin zamanda Osmanlı dövlətinin siyasi və hərbi durumu barədə casusluq edib, Osmanlı ordusuna səfərbər olanlar isə fərarilik edərək əldə silah rus ordusuna qoşulublar.

Odur ki, Osmanlı ordusuna qarşı vuruşan yeni bir cəbhə - "erməni cəbhəsi" yaranmışdı. Osmanlı hökuməti ermənilərin bu xəyanətini görüb onları döyüşlər getdiyi ərazilərdən çıxarıb ölkənin şərqindəki ərazilərə köçürməyə qərar verdi. Yolda ola bilər ki, ermənilər kiçik bir hissəsi təbii səbəb və xəstəliklərdən həlak olubdur.

O vaxt Türkiyə ərazisində 600 minə yaxın erməni əhalisi yaşayırdı. Erməni tarixçiləri isə heç bir real fakta əsaslanmadan milyon yarım erməninin öldürüldüyünü iddia edirlər. Əlbəttə, bunlar ağ yalandır!



*Qayıdışın akkordları*



**İşğaldan azad edilmiş ərazilərimizdə, o cümlədən Ağdamda bərpa-quruculuq işləri sürətlə davam edir. Yeni infrasruktur qurulur, yaşayış məhəllələri salınır, sənaye parkları, aqroparklar yaradılır. Sistemli şəkildə həyata keçirilən bütün bu layihələr keçmiş məcburi köçkünlərin doğma yurdlarına tezliklə qayıdacaqlarından xəbər verir.**

# Ağdam–"ruhlar şəhəri" doğmalarını bağrına basır



Alışovlar ailəsi yurd-yuvasından didərgin düşəndən keçən 30 ildə doğma şəhərlərinə–Ağdama qayıdacaqları günü həsrətlə gözləyiblər. Nəhayət, uzun bir ayrılıqdan sonra bu istəklərinə qovuşublar. **Ailə üzvləri söhbətə Ağdamla bağlı xatirələrindən başladılar. Pərvin Alışova dedi:** "Mən yurddan ayrılanda balaca idim. Ona görə də yaddaşımda bu şəhərlə bağlı xatirələr elə də çox deyil. Ancaq doğma Ağdamın, evimizin xəyalını valideynlərimin danışıqları sayəsində unutmamışam. Yadımdadır, əmim Atamoğlan Alışov Ağdam uğrunda gedən qanlı döyüşlərdə şəhid olmuşdu. Atam əmimin üç mərasiminə çörək almaq üçün Ağdama gedərkən, "Bizi də apar",–deyə onun ardınca ağladıq. Göz yaşlarımıza qıymayan atam qardaşımı, məni və şəhid əmimin oğlunu da maşına mindirdi. Bibimin həyat yoldaşı Əlibaba da bizimlə idi. Dəmir yolu vağzalı deyilən yerdə qəfil açılan güllə səsindən əvvəlcə nə baş verdiyini anlamadıq. Amma az sonra hər şey məlum oldu. Əlibaba namərd güllələsinə tuş gəldiyindən həyatını itirdi...".



Elə həmin gün "tezliklə əmin-amanlıq yaranar, ev-eşiyimizə qayıdarıq" ümidi ilə Ağcabədiyə köçdük. O vaxtdan ağrılı-acılı məcburi köçkün günlərimiz başladı... Yeddi il məktəbin həyətindəki daxmada yaşadıq. Ağlımıza gəlmirdi ki, Ağdam işğal olunub və bu qəsbkarlıq illərdi ki, davam edir. Nə biləydik ki, taleyimiz belə gələcək, evimiz yanıb kül olacaq.

İndi o vaxtdan 30 ilə yaxın bir zaman keçib. Ümidlərimizin tükəndiyi bir vaxtda Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qəhrəmanlığı ilə Qarabağ torpağı, o cümlədən Ağdam şəhər və kəndləri düşməndən azad edilib. Bizə də ailəliklə Ağdamı ziyarət etmək imkanı yaranıb...".

**Pərvin Alışova daha sonra söyləyir:** "Anam mənə zəng edərək kövrək səslə Ağdama getmək istədiyini bildirdi. "Ağdam qoyub gəldiyimiz Ağdam deyil",–dedim. Onun "qızım, bilirəm, düşmən yurd-yuvamızı xarabalığa çevirib, amma o torpağı görməklə, havasını udmaqla az da olsa, həsrət yanğımı söndürərəm..." kəlməsindən sonra daha başqa bir söz deməyə dilim gəlmədi.

Beləcə razılaşdıq. Bu səfər "Yolumuz Ağdamadır" layihəsi çərçivəsində gerçəkləşdi. Səhər saat 10-da Bərdədən Ağdama yola düşdük. İndi bizi doğma şəhərlə qovuşmağa illər deyil, dəqiqələr ayırırdı. Ağdama yaxınlaşdıqca valideynlərimin həyəcanı artırdı. Axı onların doğmaları, əzizləri Ağdamda yaşayıb, gənclik çağları, xatirələri, ömürlərinin bir parçası bu şəhərdə keçib...



...Bir vaxtlar Ağdamı tərk etdiyimiz yolla indi geri qayıdırıq. Yolboyu həyəcan, kədər, sevinc bir-birini əvəz edir.

Artıq xarabalığa çevrilən, "Qafqazın Xirosiması" adlandırılan şəhərin bu acı mənzərəsi ürək ağrıdır.

Qarşımıza damları, pəncərələri sökülmüş, divarları uçurulmuş, yol-yolağası kol-kosla örtülmüş, səs-küylü bazarından əsər-əlamət qalmamış Ağdam çıxır. Bu dəhşətli mənzərə erməni işğalçılarının törətdiyi vəhşiliyi göstərir. Özümü təmkinli aparmağa çalışsam da, valideynlərimin çarəsiz baxışlarla ətrafı izləmələri nəzərimdən yayınmır, "kaş gəlməyəydik",– deyə düşünürəm. Qoyub çıxdıqları Ağdam hara, indi gördükləri Ağdam hara?.. Anamın gözləri elə hey dolub-boşalır. Atam şəhərin dağıdılmış küçələrinə, xaraba qalmış evlərinə baxdıqca gözlərinə çökən kədər aydın hiss olunur. Dağıntılar o qədər qəddarlıqla, amansızcasına törədilib ki, bu şəhərdə bir küçəni, bir döngəni, bir evi, o evdən isə bir nişanəni tapmaq mümkün deyil.

...Bələdçi, "bura dəmir yolu vağzalıdır",–deyir. İlahi, illər əvvəl bu yerdə ermənilər bizi atəşə tutmuşdular. Bu yer mənim uşaq yaddaşıma həkk olan, qorxunun ilk dəfə nə demək olduğunu duyduğum yerdir. Bura "Süleyman Sani Axundov küçəsidir" sözlərindən sonra isə anamın qeyri-ixtiyari hönkürməyi hamımızın ürəyini dağlayır. Onun bu qədər ağrılı "oy Allah!" deməsini bəlkə də, həyatımda ilk dəfə idi ki, eşidirdim".

"...Biz Ağdamda yaraşıqlı binalar, yaşıllıqlar, parklar qoyub getmişdik. Heç biri yoxdur, kol-kosdan başqa heç nə gözə dəymir. Poçtun qarşısında bir dəmir qutu var, ondan bilirsən ki, bura vaxtilə poçt olub... Bələdçi "bura Süleyman Sani Axundov küçəsidir" deyəndə evimizi görmək istədim, amma tapa bilmədim, küçəmizə baxa-baxa qaldım. Xəyalımda yaşatdığım Ağdam tamamilə başqa idi",- Sədaqət xanım deyir.

**Pərvin Alışova yenidən söhbətə qoşulur:**

Şahbulaq qalasında olanda bizə 50 dəqiqəlik istirahət verdilər. Biz Ağdamda nahar etdik. Necə də qulağa xoş gəlir: biz Ağdamda nahar etdik...

Elə gözəl torpaq qoxusu gəlirdi ki... Ayaqqabılarımı çıxarıb, yalın ayaqla Vətən torpağına basdım, istilik hiss etdim. Sonra bir ovuc torpaq götürüb öpərək qoxladım. Bir daha əmin oldum ki, ayağın doğma torpağa toxunanda öz varlığını hiss edirsən, özünə qayıdırsan, ürəklə "bu, mənəm",– deyə bilirsən!

...Torpaqdan həm də qan qoxusu gəlirdi. Sanki Ağdam uğrunda 6 mindən çox şəhidlik zirvəsinə ucalan Vətən oğullarının qanı torpağa qarışıb, bu torpaq qanla yoğrulub...

İndi sürətlə bərpa olunan, tikilib-qurulan Ağdama köçəcəyimiz günə, burada xoşbəxt, bəxtəvər günlər yaşayacağımıza az qalıb, lap az. Tezliklə bu şəhərin sükutu pozulacaq, sözü, səsi özünə qayıdacaq Ağdamın. Hər evdən ürəyə yatan muğam eşidiləcək.



Düşmən düşünürdü ki, bu dağıntılardan sonra geri qayıdan olmayacaq. Ancaq səhv etdilər. Onlar anlamadılar ki, xalqımız üçün torpaqlarımızın yağıdan təmizlənməsi taleyüklü məsələdir. Haqlı olduğumuzu döyüş meydanında da sübut etdik.

Hazırda Ağdamda genişmiqyaslı tikinti işləri gedir. Yaşayış evləri, sosial binalar, yol-nəqliyyat infrastrukturu sürətlə bərpa edilir, yeniləri tikilir. Çox keçməyəcək, biz Ağdamı ağrı-acıları ilə deyil, gözəlliyi, sürətli inkişafı və sakinlərin yüksək rifahı ilə xatırlayacağıq.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

*Heydər Əliyev – 100*

# Koqalımda Azərbaycanın ümummilli liderinə abidə ucaldılacaq

**Rusiyanın Koqalım şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şərəfinə ucaldılacaq abidənin yerinə üzərinə yazılı lövhə vurulmuş rəmzi daş qoyulub.**

AZƏRTAC xəbər verir ki, Koqalım şəhərinin başçısı Nikolay Palçikov özünün teleqram kanalında bu barədə paylaşım edib.

O qeyd edib ki, abidə Heydər Əliyevin 100 illik yubileyi şərəfinə ucaldılacaq.

"Xəzəryanı Azərbaycan Respublikasından olan şəxslər neft-qaz sahəsinin (red. - RF Xantı-Mansi Muxtar Dairəsinin) inkişafına əhəmiyyətli töhfə veriblər. Bu görkəmli insanlara hörmət əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 100 illik yubileyi şərəfinə ucaldılacaq abidənin yerinə bu gün rəmzi daş qoyulub", - deyə Nikolay Palçikov yazıb.

# Ulu öndər və hüquqi dövlət quruculuğu

**Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Respublikasının Prokurorluğunun göstərişinə müvafiq olaraq Mingəçevir şəhər prokurorluğu "Ulu öndər və hüquqi dövlət quruculuğu" mövzusunda konfrans keçirmişdir.**



Məclisi giriş sözü ilə açan Mingəçevir şəhər prokuroru Qabil Səfərov iştirakçıları salamlayaraq qonaqları təqdim etmişdir. Konfrans iştirakçıları torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Mingəçevir şəhər prokuroru Qabil Səfərov geniş məruzə ilə çıxış edərək Azərbaycan Respublikası Prokurorluğunun keçdiyi şərəfli yoldan bəhs etmiş, ulu öndər Heydər Əliyevin prokurorluq işçilərinə göstərdiyi diqqət və qayğıdan ətraflı söhbət açmışdır.

Konfransda Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov geniş məruzə ilə çıxış edərək Heydər Əliyevin 30 ildən artıq bir dövrdəki hakimiyyəti illərində Azərbaycanın inkişafına və eləcə də prokurorluq işçilərinə göstərdiyi hərtərəfli qayğısından, həyata keçirdiyi əməli işlərdən bəhs etmişdir.

Konfransda Ağdaş rayon prokuroru Anar Əliyev, Milli Məclisin deputatı Məzahir Əfəndiyev, Göyçay şəhər prokuroru Ramin Hüseynov çıxış etdilər. Natiqlər ulu öndər Heydər Əliyevin dövlətimizin, xalqımızın inkişafı, tərəqqisi, həyat tərzinin yaxşılaşdırılması yolundakı xidmətlərindən danışaraq bu siyasətin bu gün də dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirmişlər.

Sonda ulu öndərə həsr edilmiş videoçarx nümayiş olunmuşdur.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# 25-ci "Vətən Bağı" Ağstafada salındı



**2021-ci ildən etibarən "Qırmızı Ürəklər" Fondu Birinci və İkinci Qarabağ müharibəsi zamanı şəhid olan qəhrəman oğullarımızın əziz xatirəsini əbədiləşdirmək məqsədilə ölkənin bir sıra rayonlarında "Vətən Bağı" layihəsini həyata keçirməyə başlayıb. Hər rayonda həmin rayonun şəhidlik zirvəsinə ucalan igidlərinin sayına uyğun ağaclar əkilir. Layihə Azərbaycanın ekoloji mühitinə töhfə vermək və şəhidlərimizin xatirəsini əbədiləşdirmək məqsədini daşıyır.**

Növbəti "Vətən Bağı" "Qırmızı Ürəklər" Fondu, "Paşa Holding" MMC və "Kapital Bank" ASC-nin təşkilatçılığı ilə Ağstafa şəhəri, Hüseyn Arif küçəsində salınıb. "Hər şəhid üçün bir ağac əkək" şüarı ilə 229 ədəd sərv və tuya ağacının əkildiyi aksiyada rayon rəhbərliyi, "Qırmızı Ürəklər" Fondunun prezidenti Sevda Haqverdiyeva, şəhid ailələrinin üzvləri, qazilər, "Kapital Bank"ın əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Layihə Ağstafa Rayon İcra Hakimiyyətinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə həyata keçirilib.

"Vətən Bağı" əsasən, insanların sıx olduğu yerlərdə, parklarda və şəhərin mərkəzlərində təşkil olunur. Bununla da




ölkə ərazisində "Vətən Bağ"larının sayı 25-ə çatıb və aksiya ağacəkmə mövsümü zamanı yenə davam etdiriləcək.

Əkilən ağaclara qulluq olunması, suvarılması və digər lazımi tədbirlər yerli icra hakimiyyəti orqanları və "Qırmızı Ürəklər" Fondu tərəfindən həyata keçirilir.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Milli dövlətçiliyimizin xilaskarının media dərsləri

**Xəbər verdiyimiz kimi, Nəsimi Rayon İcra Hakimiyyəti "2023 – Heydər Əliyev İli" çərçivsində rayon ictimaiyyəti nümayəndələrinin ölkənin tanınmış ziyalıları ilə "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda silsilə görüşlərini təşkil edir. Ümummilli liderin anadan olmasının 100 illiyi münasibətilə "Xalq qəzeti" redaksiyası ilə birgə keçirilən növbəti konfrans "Heydər Əliyevin media dərsləri"nə həsr edilmişdi.**





***Toplantıda müstəqil dövlətimizin banisinin demokratik cəmiyyətdə medianın rolu və vəzifələri ilə bağlı konseptual təlimi diqqət mərkəzində oldu, ulu öndərin milli jurnalistikamızın inkişafındakı xidmətləri qədirbilənliklə yad edildi.***

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşovun və redaksiya əməkdaşlarının, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayevin, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevin və Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatının sədri Azər Süleymanovun iştirak etdikləri konfransı giriş sözü ilə açan Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov bildirdi ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə milli mətbuatımızın, ölkə teleradiosunun peşəkarlıq baxımından yüksəlişi və maddi-texniki bazasının möhkəmləndirilməsi üçün əsaslı tədbirlər həyata keçirib.

Cəmiyyətin ümumi inkişafında, sivil dəyərlərin geniş intişar tapmasında medianın rolunu yüksək dəyərləndirən ümummilli lider, eyni zamanda, jurnalist nüfuzunun yüksəldilməsi üçün də zəruri tədbirlər gerçəkləşdirib. Azərbaycanda sağlam və peşəkar mətbuatın formalaşmasında Heydər Əliyevin xidmətləri misilsizdir. Bütün bunlara görə müstəqillik illərində ölkə jurnalistləri azad sözün böyük himayədarını "Jurnalistlərin dostu" elan etmişdilər.

Rayon rəhbəri qeyd etdi ki, ötən əsryarımlıq dövrdə zəngin və şərəfli yol keçən Azərbaycan milli jurnalistikası ulu öndərin yaratdığı mükəmməl hüquqi və müasir texnoloji baza üzərində özünün yüksəliş mərhələsini yaşamaqdadır. Mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirən Heydər Əliyev müstəqillik şəraitində söz azadlığı prinsiplərinin bərqərar olması üçün ardıcıl, sistemli tədbirlər həyata keçirib.

Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ulu öndərin əziz xatirəsinə ehtiramın ali nümunəsidir. Ümummilli liderin anadan olmasının 100 illiyi şərəfinə davam edən il çərçivəsində keçirilən hər bir tədbir dünya şöhrətli siyasətçi və dövlət xadiminin siyasi fəaliyyətinin hər bir mərhələsinə bir daha nəzər salınması, onun ideyalarının təbliği və gənc nəsillərə ötürülməsi baxımından olduqca önəmlidir.

Asif Əsgərov giriş nitqinin sonunda söylədi ki, "Heydər Əliyev İli" peşəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının ulu öndərin müqəddəs xatirəsi, mənəvi varlığı və müstəqil dövlətçiliyimiz qarşısında hesabatına çevrilib. Bu prosesdə jurnalistlər böyük rol oynamaqla yanaşı, ulu öndərin media dərslərinə sədaqətlərini də yüksək səviyyədə nümayiş etdirirlər. Ümummilli liderin media siyasətinin son 20 ildə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi isə demokratik cəmiyyətdə azad jurnalistikanın səmərəli fəaliyyəti üçün zəruri şəraiti təmin edib, jurnalistlərin zamanın çağırışlarını operativ, peşəkarcasına cavablandırmasını stimullaşdırıb.

***Konfransın davamında "Xalq qəzeti"nin baş redaktoru, Əməkdar jurnalist Əflatun Amaşov bildirdi ki, Heydər Əliyev jurnalistikaya açıq lider idi, azad, doğru sözün gücünü kifayət qədər aydın görür və yüksək dəyərləndirirdi:***

–1969-cu ilin 14 iyulunda xalqını və Vətənini sevən, təşəbbüskar və yüksək enerjili kadr kimi respublika rəhbərliyində təmsil olunan Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi mətbuatın inkişafında əsaslı dönüş yaratdı. Məhz ulu öndərin müstəsna səyi nəticəsində o vaxtadək rəsmi həyatda ana dilimizə olan ögey münasibətdə köklü dəyişiklik baş verdi. Ümummilli lider Heydər Əliyev ölkədə anadilli jurnalistikanın rolunu və mövqeyini də əsaslı surətdə yüksəltdi. 1978-ci ildə qəbul olunan Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasında dövlət dilinin Azərbaycan dili kimi təsbit olunması milli jurnalistikamızın da inkişafına təkan verdi.

Məhz həmin dövrdə istər ədəbi, istərsə də mətbu sahədə yüksək irəliləyiş nəzərə çarpırdı. Azərbaycan dilində qəzetlərin sayı artırıldı, teleradionun ana dilində yayımı genişləndirildi. Ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət



yetirdi. Respublika rəhbərinin təşəbbüsü və himayəsi ilə o zaman həmin fakültənin istedadlı tələbələri Moskva Dövlət Universitetinə oxumağa göndərildilər. Bu isə Azərbaycan milli jurnalistika məktəbinin dünya təcrübəsi əsasında yenidən formalaşmasında faydalı rol oynadı. Bütün bunların nəticəsi idi ki, o dövrdə Azərbaycanda nəşr olunan qəzet-jurnallar və efirə yayılan verilişlər ittifaq miqyasında da peşəkarlıq səviyyəsinə və digər parametrlərinə görə seçilirdi.

Artıq Azərbaycan mediası uzun onilliklərlə qadağan olunan milli adət-ənənələrimizdən, milli tariximizdən, zəngin mədəniyyətimizdən daha çox yazmağa, danışmağa, göstərməyə başladı. Sovet İttifaqının dağılması ilə müstəqillik əldə edən Azərbaycanın mediasının da aqibəti bəlalı oldu. Həmin dövrdə jurnalist kollektivlərinin necə böyük çətinliklərlə üzləşdiyi hamıya bəllidir. Söz azadlığından şəxsi və qrup maraqlar üçün istifadə cəhdləri ilə yanaşı, medianın maliyyə, təminat böhranı ilə də üzləşməsi onun inkişafında ciddi əngələ çevrilmişdi.

Belə bir zamanda xalqın, xüsusən ölkənin xilasını düşünən ziyalıların tələbi ilə müstəqil dövlətin ali rəhbərliyinə gələn ümummilli lider Heydər Əliyev bütün sahələrdə olduğu kimi, Azərbaycan jurnalistikasının da milli maraqlar və dövlətçilik ruhunda inkişafı üçün zəruri tədbirləri təxirəsalmadan gerçəkləşdirdi. Milli jurnalistikamızın tarixində senzuranın ləğvi kimi inqilabi addım da ulu öndərin adı ilə bağlıdır. Biz o zaman düşünürdük ki, müharibə vəziyyətində olan bir ölkə senzuranı necə ləğv edə bilər? Ulu öndər Heydər Əliyevin 1998-ci il avqustun 6-da senzuranın ləğvi ilə bağlı qərarı "Ölüm hökmü"nün ləğvi ilə yanaşı, həqiqətən, cəsarətli və uzaqgörən addım idi.

Müdrik rəhbər üçün media, eyni zamanda, dövlət idarəçiliyinin vacib vasitəsi idi. Heydər Əliyev ölkəyə rəhbərliyinin birinci dövründə olduğu kimi, ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra da bu xəttini yüksək səviyyədə davam etdirdi. O, mətbuatı bilavasitə demokratik cəmiyyət quruculuğunun mühüm amili kimi təsdiqlədi. Bütün bunlarla "Jurnalistlərin dostu" adını qazanmış Heydər Əliyev mediaya azad sözün və plüralist fikrin ifadə meydanı olaraq yanaşırdı.

Jurnalistlərimizin böyük himayədarı Heydər Əliyev həmişə çalışırdı ki, media fəaliyyəti cəmiyyətin demokratikləşməsində önəmli vasitəyə və təsirli qüvvəyə çevrilsin. Ulu öndər bu məqsədinə nail olmaq üşün tarixi əsaslar yaratdı. Azad mediamız bu mötəbər zəmin üzərində uğurlarını davam etdirir. Heydər Əliyevin media dərsləri milli jurnalistikamızı daim irəli və yüksəlişə doğru aparır.

***"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Alqış Musayev isə söylədi ki, demokratik cəmiyyətdə medianın yerini ən dəqiq və qeyri-adi bir həssaslıqla dəyərləndirən düşüncə ulu öndər Heydər Əliyevə məxsusdur:***

–1993-cü ildə iyunun 15-də Milli Məclisin sədri seçilən Heydər Əliyev növbəti iclasların birində belə bir bəyanat səsləndimişdi: "Mətbuat, informasiya bu gün müasir dünyanın canıdır". Ulu öndərin jurnalistikaya münasibəti heç vaxt cari, ötəri xarakter daşımayıb. Heydər Əliyevin mətbuata yanaşmasının əsasında onun sözə yüksək münasibəti dayanırdı. Söz onun üçün alternativsiz silah idi. Söz onun üçün enerji daşıyıcısı idi. Söz onun təqdimatında bərpa olunan enerjiyə çevrilirdi. Onun özünə olan kütləvi xalq inamı onun sözünə və məntiqinə olan inamdan qaynaqlanırdı.

Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin media siyasətinin ilk addımları olaraq jurnalist kollektivlərinə ilkin maddi-maliyyə dəstəyi göstərildi. Bununla yanaşı, müstəqil informasiya vasitələrinin təsis edilməsi və azad fəaliyyəti üçün ölkəmizdə zəruri qanunvericilik bazası yaradıldı. Mediaya dövlət nəzarəti olan senzuranın aradan qaldırılmasından sonra beynəlxalq standartlara cavab verən, dövri nəşrlərin və digər kütləvi yayım vasitələrinin təsis edilməsi və fəaliyyəti üçün qanunvericiliyin təkmilləşdirilməsi, optimal hüquqi mühitin formalaşdırılması istiqamətində zəruri olan sənədlər qəbul edildi.

Sonrakı illərdə ölkənin əsas kütləvi informasiya vasitələri və jurnalist təşkilatlarının rəhbərləri ilə dəfələrlə görüşən ümummilli lider azad jurnalistikanın problemlərini müzakirə edərək onun həlli istiqamətində tapşırıqlarını verdi. Bu qərarlardan sonra bir çox problemlər operativ həllini tapdı, qəzetlər əlavə dəyər və mənfəət vergisindən azad



edildi. Ötən dövrdə zamanın çağırışlarına çevik cavab verən media müasir informasiya cəmiyyəti quruculuğunda, milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində, o cümlədən demokratik maarifləndirmə sahəsində mühüm rol oynayır.

Bu gün müstəqil Azərbaycan dövləti əsası ümmumilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi-demokratik dövlət quruculuğu yolu ilə təminatlı gələcəyə doğru inamla addımlayır. Azərbaycan mediası bu inkişafın ön sıralarında qərar tutmaqdadır. Əslində, başqa cür ola da bilməz. Çünki ənənəvi mətbuatın da, elektron medianın da yükü və qayğısı kimi, məsuliyyəti də bu gün həmişə olduğundan qat-qat ağırdır.

Heydər Əliyevin siyasətinin gücü sözünün gücü ilə düz mütənasib idi. O, XX əsrin nadir siyasi liderlərindəndir ki, sözün enerjisini bütün çalarları ilə duya bilirdi, səfərbər edirdi və milli dövlətçilik maraqları, cəmiyyətin bütövlüyü naminə yönləndirə bilirdi. Heydər Əliyev idarəçilik məktəbinin və siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin ölkəyə ali rəhbərliyi dövründə Azərbaycanda mətbuata dövlət qayğısının miqyası daha da genişlənmişdir. İndi Azərbaycanda istənilən şəxs özünə mətbuat orqanı yarada bilər. Bunun üçün yetərincə əlverişli mühit olduğundan qəzet və jurnalların sayı durmadan artır.

Ulu öndər Heydər Əliyevin çox təcrübəli bir dövlət adamı olaraq Azərbaycan cəmiyyətinin problemlərinin işıqlandırılması, onun dövlət orqanlarının nəzərinə çatdırılması, obyektiv medianın düzgün dövlət yönətimində nə qədər əhəmiyyətli bir funksiya daşıdığını lazımı şəkildə qiymətləndirə bildi. Ali idarəetmədə azad sözə böyük önəm verən Heydər Əliyevin gücü bunda idi

***"İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə də vurğuladı ki, ümummilli lider Heydər Əliyevin böyük səyləri nəticəsində Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirildi:***

–Qüdrətli lider, qarşısına qoyduğu hədəfləri qətiyyətlə fəth edən ulu öndər Heydər Əliyev sovet dönəmindəki kimi,



müstəqil Azərbaycan dövlətinin Prezidenti olduğu illərdə də milli mətbuatımızın, ölkə teleradiosunun, kinonun və kitab nəşrinin inkişafı naminə çox böyük işlər görüb. Ölkədə kütləvi informasiya vasitələri ilə bağlı mükəmməl qanunvericilik bazasının yaradılması, həm yazılı, həm də elektron medianın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalist kadrlarının sosial müdafiəsinin gücləndirilməsi sahəsində Prezident Heydər Əliyevin həyata keçirdiyi vacib tədbirlər milli jurnalistikamızın növbəti inkişafına yol açdı.

Ümummilli lider Heydər Əliyev demokratik dəyərləri, insan hüquq və azadlıqlarını, sosial ədalət prinsipini uca tutan rəhbər kimi kütləvi informasiya vasitələrinin cəmiyyətdəki roluna hər zaman böyük önəm verirdi. Ümummilli liderin rəhbərliyi altında hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan 1993-cü ildən insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşuldu.

Ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə mətbuatın cəmiyyətə təsir imkanlarının böyüklüyü yüksək dəyərləndirilərək kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlərə geniş yer verildi. Dahi şəxsiyyət azad, sözün, doğru informasiyanın insanların vahid məqsədə yönəldilməsindəki səfərbəredici rolunu hamıdan yaxşı görürdü. Buna görə də medianın inkişaf tələbatına və jurnalistlərin ehtiyaclarına xüsusi həssaslıqla yanaşırdı.

Media qurumlarının lisenziyasızlaşdırılmasının və senzuranın ləğvi, qəzet və jurnalların borclarının dondurulması, bir sıra mətbuat orqanlarının dövlətə olan borclarının ləğvi, ayrı-ayrı qəzet və jurnalların çapının dövlət hesabına maliyyələşdirilməsi ilə bağlı addımlar da azad jurnalistikanın özüllərini möhkəmləndirdi. Ulu öndərin həssas və qayğıkeş münasibəti sayəsində bu və ya digər formada qanun pozuntusuna yol vermiş neçə-neçə media mənsubunun cinayət məsuliyyətindən azad olunması, tənqidə yüksək səviyyədə dözümlülük, istedadlı yazarların əməyinin qiymətləndirilməsi nümunələri də ulu öndərin media dərslərini tamamlayan qiymətli elementlərdir.

***"Bakı xəbər" qəzetinin baş redaktoru, politoloq Aydın Quliyev də qeyd etdi ki, ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdışından sonra müstəqil dövlətçilik üçün lazımlı və əhəmiyyətli olan bütün institutların formalaşdırılması, möhkəmləndirilməsi yönümündə sistemli addımlar atıldı:***

– Heydər Əliyev dünya miqyaslı böyük dövlət xadimi olaraq bütün istiqamətlərdə Azərbaycan dövlətinin möhkəm əsaslarını yaratdı. Bu təməllər üstündə güclü dövlətçiliyin sonrakı inkişafı təmin edildi. Ulu öndərin media–dövlət münasibətləri çərçivəsində apardığı siyasət də tarixi önəmi ilə yanaşı, bügünkü və gələcək fəaliyyət üçün strateji mahiyyət daşıyır. Heydər Əliyevin ümumən media-dövlət siyasəti sadə və məntiqli bir sxem üstündə qurulmuşdu. Bu ondan ibarət idi ki, dövlət medianın inkişafına dəstək verməli, media isə öz növbəsində dövlət quruculuğu prosesinin fəal iştirakçısı və böyük güc mənbələrindən biri olmağı bacarmalıdır.

Ötən əsrin 90-cı illərinin ortalarında və 2000-ci illərin əvvəllərində respublika rəhbərinin atdığı addımlar real şəkildə sübut etdi ki, Heydər Əliyevin müəyyən etdiyi media–dövlət əməkdaşlığı, həqiqətən, real və praktik inkişaf xarakterlidir. O zaman medianın inkişafını dövlətin himayəsi altına almaq üçün bu yanaşmadan uğurlu format tapmaq mümkün deyildi. Heydər Əliyev məhz bu model çərçivəsində mediaya siyasi və maddi dəstək tədbirlərini gerçəkləşdirdi. Bununla nəşriyyatlara və redaksiyalara dövlətdən birbaşa yardımlar edildi, azad söz üzərində senzura demokratik dövlət quruculuğu strategiyası ilə uyuşmaz bir struktur kimi ləğv edildi. Heydər Əliyev həm də məmurları mətbuatla açıq, səmimi və şəffaf davranışlara çağırırdı.

Heydər Əliyevin bu qərarları mətbuatın müstəqilliyini əlindən almadan onun dövlət dəstəyi altında fəaliyyət göstərmək vərdişlərinin formalaşmasının əsasını qoydu. Mediaya dövlət dəstəyinin və medianı dövlət himayəsinə götürməyin əsaslarını Heydər Əliyev məharətlə yaratdı. Həm də bu, o qədər asan iş olmadı. Medianı dövlət himayəsinə götürmək, bu zaman onun müstəqilliyini və peşəkar inkişafının əsaslarını qoruyub saxlamaq, həqiqətən, çətin vəzifə idi. O zaman mediaya dövlətin şəffaf dəstək



addımları ətrafında müəyyən beynəlxalq qurumların hay-küy salmasını da unutmaq olmaz. Təbii ki, Heydər Əliyev prinsipial siyasətini davam etdirdi və sübut etdi ki, bu himayə milli maraqlar və zamanın tələbləri baxımından ən düzgün yoldur.

Heydər Əliyevin milli mətbuatımızın inkişafına xidmət edən növbəti addımı 1999-cu ildə "Kütləvi İnformasiya Vasitələri haqqında" Qanunu təsdiqləməsi oldu. Bu sənədlə ölkəmizdə yeni mətbuat orqanlarının təsis olunması prosesi xeyli asanlaşdırıldı. Mətbuat ölkədə ən sürətlə inkişaf edən, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə günü-gündən təkmilləşən fəaliyyət sahələrindən biri oldu. Ölkə mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində, o cümlədən, tədris və maarifləndirmə sahəsində mühüm rol oynadı.

Prezident İlham Əliyev də son illərdə mütəmadi olaraq KİV-in inkişafına təkan verən, onun müstəqil fəaliyyəti üçün imkanlar yaradan addımlar atır. 2005 və 2010-cu illərdə Prezidentin sərəncamları ilə milli mətbuatımızın 130 və 135 illik yubileyləri ölkə miqyasında geniş qeyd olundu. Jurnalistlər üçün 2 müasir, çoxmərtəbəli yaşayış binası tikilib onlara dövlət adından hədiyyə edildi. Hazırda Azərbaycanda yüzlərlə mətbuat orqanı, informasiya agentliyi, teleradio şirkətləri, sürətlə inkişaf edən internet resursları fəaliyyət göstərərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində mühüm əhəmiyyət kəsb edirlər.

***Konfransda çıxış edən natiqlərin çıxışları belə bir mülahizədə ortaqlıq təşkil etdi:*** Ulu öndərin əsasını qoyduğu ənənəni davam etdirən Prezident İlham Əliyevin sərəncamları ilə milli mətbuatımızın yubileyləri ölkə miqyasında geniş qeyd olunub. Müstəqil dövlətimizdə azad, demokratik medianın inkişafına, jurnalistlərin sosial problemlərinin həllinə dövlət dəstəyini təmin edən təsirli tədbirlər reallaşdırılıb. Bunların nəticəsidir ki, jurnalistika ölkədə ən sürətlə inkişaf edən, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə günü-gündən təkmilləşən fəaliyyət sahələrindən biridir.

*Səhifəni hazırladı:*
***Tahir AYDINOĞLU,***
*"Xalq qəzeti"*

# Paytaxt nəqliyyatında idarəetmə təkmilləşdirilir




**Azərbaycan Prezidenti İlham Əliyev "Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında 19 aprel 2023-cü il tarixli Fərman imzalayıb. Dövlətimizin başçısı sənəddə Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı, o cümlədən yol hərəkətinin təşkili sahəsində tənzimləmə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələri ilə müntəzəm sərnişindaşıma, həmçinin taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində rəqabətin, eyni zamanda, göstərilən xidmətlərin təhlükəsizliyinin, habelə keyfiyyətinin yüksəldilməsi məsələlərini qarşıya önəmli vəzifə kimi qoyub.**

Fərmanla Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkilində iştirak edilməsi, ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləmənin və nəzarətin həyata keçirilməsi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilib. Sənədə əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Yerüstü Nəqliyyat Agentliyi Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindəki "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin həmin quruma qoşulması formasında yenidən təşkil edilməsi nəzərdə tutulur. Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindəki "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin balansındakı əmlak isə adı çəkilən agentliyin balansına verilir.

Fərmanla Nazirlər Kabinetinə normativ hüquqi aktların təkmilləşdirilməsi və agentliyin nizamnamə fondunun miqdarının artırılması barədə təklifləri nəzərdə tutulan vaxt ərzində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək, "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin balansındakı əmlakın agentliyin balansına verilməsini üç ay müddətində gerçəkləşdirmək, agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün zəruri tədbirlər görmək, eyni zamanda, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə "Bakı Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin fəaliyyətinə xitam verilməsinin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirmək tapşırılır.

Dövlətimizin başçısı İlham Əliyev, eyni zamanda, aprelin 19-da Nəqliyyatı Əlaqələndirmə Şurasının yaradılması haqqında sərəncam da imzalayıb. Sərəncama əsasən, şura nəqliyyatın ayrı-ayrı növlərinin koordinasiyalı fəaliyyətinin və əhalinin mobilliyinin təmin edilməsi, yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, yol hərəkətinin təşkili, təhlükəsizliyi və tənzimlənməsi sahələrində fəaliyyətin əlaqələndirilməsi və təkmilləşdirilməsi məqsədilə yaradılıb.

Sərəncamla rəqəmsal inkişaf və nəqliyyat naziri Nəqliyyatı Əlaqələndirmə Şurasının sədri, bir sıra dövlət qurumlarının rəhbər və müavinləri isə üzv təyin olunublar.

Sənədlə Nazirlər Kabinetinə bir ay müddətində şuranın əsasnamə layihəsi ilə bağlı təklifləri və şuranın yaradılması ilə bağlı nəqliyyat sahəsində tənzimləmənin təkmilləşdirilməsi ilə əlaqədar normativ hüquqi aktların layihələrini hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək, həmçinin sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### *Ekspert rəyi*

**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, fəlsəfə doktoru**



Dövlət başçısının paytaxtımızın inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərmanı, eyni zamanda, Nəqliyyatı Əlaqələndirmə Şurasının yaradılması ilə bağlı sərəncamı mühüm əhəmiyyəti ilə diqqət çəkir. Yeri gəlmişkən, etiraf edək ki, nəqliyyat sektorunda bu günə kimi, bir sıra həllini gözləyən problemlər mövcuddur və ölkə Prezidentinin imzaladığı adları çəkilən sənədlər həmin çətinliklərin aradan qaldırılması, bu sahədə dönüşün yaradılması, sözügedən sektorun inkişafının gerçəkləşdirilməsi məqsədi daşıyır.

Uzun illər ərzində mövcud sistemin yenidən qurulması, müasirləşdirilməsi daim diqqət mərkəzində saxlanılıb, bu istiqamətdə çoxsaylı layihələr reallaşdırılıb. İstər yükdaşımada, istərsə də müxtəlif nəqliyyat vasitələri ilə əhaliyə xidmət göstərilməsində yüksək keyfiyyət göstəricilərinə nail olunub. Əlbəttə, bu məsələdə avtomobil nəqliyyatı parklarının yenilənməsi, xidmət prosesində təhlükəsizliyin təmin olunması və yol infrastrukturunun müasir səviyyədə qurulmasına xüsusi önəm verilib.

Bütün bunlara baxmayaraq, sözügedən sistemdə görüləsi işlər də çoxdur. Məsələn, hazırda həm paytaxt ərazisində, həm də regionlarımızda avtomobil nəqliyyatı, o cümlədən yol hərəkətinin təşkili sahəsində tənzimləmə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə ciddi ehtiyac duyulur. Bundan başqa, ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələri və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində rəqabətin nizama salınmasında müəyyən çatışmazlıqlar böyük narahatlıq doğurur. Şübhəsiz ki, hər iki tərəfdə göstərilən xidmətlər baxımından müəyyən nöqsanlar da nəzərə çarpır və bu, təhlükəsizliyin və keyfiyyətin yüksəldilməsi məsələlərinin həllini zəruri edir.

Bütün bunlara əsasən, deyə bilərəm ki, dövlətimizin başçısının müvafiq sərəncamı ilə yaradılan Nəqliyyatı Əlaqələndirmə Şurası səmərəli fəaliyyəti ilə nəqliyyatın ayrı-ayrı növlərinin koordinasiyalı fəaliyyətini və əhalinin mobilliyini təmin edəcək, yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, yol hərəkətinin təşkili, təhlükəsizliyi və tənzimlənməsinin daim diqqətdə saxlamaqla, ölkəmizin iqtisadiyyatının daha da güclənməsinə, əhalinin sosial şəraitinin daha da yaxşılaşmasına önəmli töhfə verəcək.

Yeri gəlmişkən, nəqliyyat sektoruna göstərilən diqqət və aparılan düşünülmüş siyasət nəticəsində son illərdə bu sahə uğurla inkişaf edib. Yol infrastrukturu yenilənib. Yol hərəkətinin təşkilinə gəldikdə isə nəqliyyat vasitələrinin və ya piyadaların təhlükəsizliyini, fasiləsiz və rahat hərəkətini təmin etmək məqsədilə küçə-yol şəbəkəsi daim yenilənib, bu istiqamətdə bir sıra mühəndis və təşkilati tədbirlər reallaşdırılıb.

**Azərbaycanda ötən il 1 milyon 71 min hektar sahədə taxıl əkilib. Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, bu, 2021-ci illə müqayisədə 4,2 faiz çox olub. 2022-ci ilin payız əkini mövsümündə ölkə üzrə 657 min 900 hektar sahədə buğda əkilib ki, bu da əvvəlki illə müqayisədə 9,3 faiz çoxdur.**

# Əkməsən – biçməzsən

*Bu mövsüm üçün 1 milyon hektardan çox sahəyə taxıl səpilib*



Ötən il, həmçinin 399 min 700 hektarda arpa, 200 hektarda isə çovdar əkilib.

Xatırladaq ki, 2021-ci ildə ölkə üzrə 1 milyon 28 hektar taxıl əkilmişdi ki, bunun da 602 min 100 hektarı buğda, 413 min 600 hektarı arpa, 200 hektarı isə çovdar təşkil etmişdi.

***"Xalq qəzeti"***

# Əhalinin gəlirləri 15,2 faiz artıb

**Dövlət Statistika Komitəsindən aldığımız məlumata əsasən, yanvar-mart aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15,2 faiz artaraq 18 milyard 479,9 milyon manat və ya hər nəfərə orta hesabla 1823,7 manat olub.**

Əhalinin sərəncamında qalan gəlirlər 16 milyard 345,3 milyon manat təşkil edib.

***"Xalq qəzeti"***

**2022-ci ildə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində yük və sərnişin daşınmalarından 778 milyon 348,3 min manat gəlir əldə olunub. Bu isə əvvəlki illə müqayisədə 35,6 faiz və ya 204 milyon 350,7 min manat çoxdur. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.**

# Daşınmaların gəlirliyi yüksəlib

Məlumata görə, ötən il Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində yük daşınmasından 734 milyon 912,5 min manat, sərnişin daşınmasından isə 43 milyon 435,8 min manat gəlir əldə olunub. Bu da əvvəlki ilin göstəricilərinə müvafiq olaraq 36,1 faiz və 27,9 faiz üstələyib.



Xatırladaq ki, 2022-ci ildə Avropa-Qafqaz-Asiya dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 51 milyon 420,6 min ton təşkil edib, bu da illik müqayisədə 29,8 faiz çoxdur. Yüklərin 27 milyon 966,8 min tonu və ya 54,4 faizi avtomobil nəqliyyatı, 16 milyon 841,2 min tonu və ya 32,7 faizi dəmir yolu nəqliyyatı, 6 milyon 612,6 min tonu və ya 12,9 faizi isə dəniz nəqliyyatı ilə daşınıb. Yeri gəlmişkən, adıçəkilən dəhliz vasitəsilə daşınmış yüklərin 26,5 faizi və ya 13 milyon 634,6 min tonunu tranzit yüklər təşkil edib.

***"Xalq qəzeti"***

# Ölkədə 43 mindən çox ipoteka krediti verilib

***İpoteka və Kredit Zəmanət Fondu indiyədək verdiyi ipoteka kreditlərinin sayı və məbləği barədə məlumat yayıb.***

Bildirilib ki, Fondun xətti ilə ötən müddətdə 43 min 592 ipoteka krediti verilib. İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ isə 2 milyard 532 milyon 448 min 864 manat təşkil edib.

***"Xalq qəzeti"***

# Türkiyədə Qara dəniz qazının ilk məşəli alovlandırıldı

**Dünən Türkiyə üçün tarixi bir gün idi. Qara dənizin qardaş ölkəyə aid sektorunun "Sakarya" yatağından təbii qazın tədarükünə başlandı. Bu münasibətlə keçirilən mərasimdə məşəl alovlandırıldı. Bundan sonra isə qaz Türkiyənin BOTAŞ dövlət şirkətinin emal müəssisəsinə yönəldildi.**



Qeyd edək ki, Türkiyə Qara dənizdə açıq qaz ehtiyatlarının ümumi həcmini 540 milyard kubmetr səviyyəsində qiymətləndirir. Bunun 400 milyard kubmetri Sakarya əyaləti sahillərinin yaxınlığında 2020-ci ildə kəşf olunan eyniadlı yatağın payına düşür. Yatağın işlənməsinin birinci fazası çərçivəsində gündə 10 milyon və ya ildə 3,4–4 milyard kubmetr həcmində hasilat planlaşdırılır.

Mütəxəssislərin fikrincə, 2027–2028-ci illərə qədər qazın gündəlik hasilat həcmi 40 milyon kubmetr təşkil etmədir, illik həcmlərin isə 15 milyard kubmetrə çatacağı gözlənilir. Plana əsasən, hasilat 2026-cı ilə qədər ən pik nöqtəsinə çatmalıdır.

Yeri gəlmişkən, Türkiyə hökuməti keçən il "Sakarya" yatağından qazın tədarükünün mart ayından başlayacağını bildirmişdi. Lakin cari ilin mart ayının əvvəllərində Türkiyənin energetika naziri Fatih Dönməz həmin yataqdan qazın tədarükünün aprelin sonunadək başlayacağını açıqlamışdı. O, tədarükün gecikməsini fevralda ölkədə baş verən zəlzələlərlə əlaqələndirmişdi. "Biz plana əməl etdik, lakin zəlzələlərə görə müəyyən gecikmələr oldu. Aprelin sonuna qədər istehlakçılara qazın verilməsinə başlamağı planlaşdırırıq. Vətəndaşlarımıza verdiyimiz sözə əməl edəcəyik", – deyə F. Dönməz vurğulamışdı.

"Sakarya" yatağından qaz tədarükü ilə bağlı onu deyək ki, bu "mavi yanacaq" potensialı qardaş ölkənin enerji təhlükəsizliyində önəmli rol oynayacaq. Xatırladaq ki, indiyədək Türkiyənin yalnız beş şəhər və 57 yaşayış məntəqəsi təbii qazla təchiz olunub. Hazırda qardaş ölkədə 81 şəhər mərkəzi və 669 yaşayış məntəqəsində vətəndaşlar təbii qazdan faydalanırlar.

Xatırladaq ki, "mavi yanacağ"ın mayın ilk həftəsində əhaliyə veriləcəyi nəzərdə tutulub. Burada bir məqama da toxunmaq istərdik. Bu da Türkiyədə qaz habının yaradılması ilə bağlıdır. Belə bir məsələdən bəhs etməzdən əvvəl qeyd edək ki, Avropanın illik qaz istehlakının 510 milyard kubmetr olduğu deyilir. Eyni zamanda, Rusiya Ukrayna ilə müharibəyə başlayana qədər bu həcmin 170-180 milyard kubmetrinin bir neçə boru xətti ilə təmin edilirdi, hazırda isə onlardan yalnız birinin – müharibə üzündən qaz nəqli həcminin çox aşağı düşdüyü Ukraynadan keçən xəttin işlək vəziyyətdə saxlanıldığı bildirilir.

Təbii ki, belə bir halda Avropa üçün qazla bağlı əsas tədarük məsələsində ən səmərəli variant Türkiyədə qaz qovşağı yaradılması layihəsidir. Bu məqamda "Türk axını", TANAP və TAP, İrandan qardaş ölkəyə çəkilən "İTE" boru xətləri də, necə deyərlər, köməyə çatır. Ekspertlərin fikrincə, Türkiyə bütün boru xətlərinin tam həcmdə işlədiyi təqdirdə Rusiya, Azərbaycan və İrandan 90-100 milyard kubmetr qaz ala bilər. Bu isə Türkiyənin böyük qaz qovşağına çevrilməsini şərtləndirir.

Türkiyədə qaz qovşağının yaradılması Azərbaycan üçün də mühüm önəm daşıyır. Bu, ilk növbədə, ölkəmizin artan qaz həcmlərini satması üçün əlverişlidir. Digər tərəfdən də Türkiyə TANAP və Bakı-Tiflis-Ərzurum kəmərləri ilə respublikamızdan qaz alır. Hər iki ölkə arasında qaz ticarəti qarşılıqlı anlaşma və güzəştlər şəraitində həyata keçirilir. Avropa İttifaqının Azərbaycan qazına ehtiyacının yüksək olması TANAP-ın ötürücülük gücünün 30 milyard kubmetrə qədər artırılması üçün əlverişli şərtlər formalaşdırır. Bundan əlavə, Azərbaycan qazını Türkiyə-Yunanıstan sərhədindən İtaliyaya daşıyan TAP-ın genişləndirilməsini də şərtləndirir.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

### *Ekspert rəyi*

**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**



Son illər Türkiyə dünyanın enerji mərkəzlərindən birinə çevrilməkdədir. İyirmi ildir ki, bu dövlət neft-qaz, elektrik enerjisi, ümumiyyətlə, enerji sektorunda çox ciddi nailiyyətlər əldə edir.

Qardaş ölkə nüfuzunu artırmaq və enerji təhlükəsizliyini təmin etmək, həmçinin digər dövlətlərdən enerji asılılığını azaltmaq üçün Qara dənizdə fəal neft-qaz axtarışlarını davam etdirir.

"Türkiyə Petrolları Anonim Ortaqlığı" (TPAO) şirkəti tərəfindən Qara dənizin ultradərinliyində aparılan kəşfiyyat işlərində indiyədək ümumilikdə 540 milyard kubmetr təbii qaz aşkar edilib. Türkiyənin Sakarya Qaz Sahəsinin İnkişafı Layihəsi dəniz altında qurulacaq təbii qaz hasilat sistemi, Filyos sahilində yaradılacaq emal qurğusu və bu iki bloku birləşdirəcək boru kəmərlərindən ibarətdir. Belə ki, Filyosda yerləşən təbii qaz emalı müəssisəsinə ilk təbii qazın verilməsi də bu ilə planlaşdırılır. Hazırda son məlumat olaraq TPAO Qara dənizdəki "Sakarya" qaz yatağındakı "Türkali-2" kəşfiyyat quyusunda üçüncü rezerv səviyyəsində keçirdiyi axın testinin uğurla tamamlandığını açıqlayıb.

Qeyd etmək istərdim ki, Türkiyənin enerji ehtiyatları, ümumiyyətlə, karbohidrogen ehtiyatları hazırkı məlum ehtiyatlardan dəfələrlə çoxdur. Belə ki, Qara dənizdə kəşf edilmiş ümumilikdə 540 milyard kubmetrlik təbii qaz ehtiyatı da orada olan real göstəricidən ən azı iki dəfəyə qədər azdır. Məsələn, Azərbaycanda da yataq olub ki, ehtiyatı ilk öncə 500 milyard kubmetr dəyərləndirilib. Amma qısa müddət sonra artıq bir trilyon kubmetri keçməsi təsdiqlənib. Bu, təcrübədə də var. O relyefi nəzərə alsaq, düşünürəm ki, Türkiyənin kifayət qədər geniş potensialı ortaya çıxacaq.

Yunanıstan və digər ölkələr tərəfindən Türkiyəyə basqı və təzyiqlərə baxmayaraq, qardaş ölkənin Aralıq dənizində güzəştə getməməsi strategiyası çox doğrudur. Yəni təbii olaraq belə bir strategiyanın qəbulu nəticəsində Türkiyə digər istiqamətlərdə müəyyən zərərlərlə və itkilərlə üzləşə bilər. Amma Aralıq dənizində Türkiyənin güzəştə getməməsi və bu dənizdə olan ehtiyatlardan faydalanması nəticəsində əldə etdiyi mənfəət onun üzləşdiyi zərərdən daha çoxdur. Yəni strateji yanaşmada Türkiyənin bu mövqeyi birmənalı olaraq dəstəklənməlidir.

Türkiyənin coğrafi quruluşu və coğrafi yerləşməsi də elə bir koordinatlardadır ki, böyük ehtimalla, yaxın olmasa da, orta gələcək üçün bu dövlət bir karbohidrogen ehtiyatlarının habına çevriləcək.

Türkiyə daxili tələbatı ödəməklə yanaşı, enerji sahəsində asılılığa da son qoyacaq. Qeyd edim ki, "Sakarya" yatağından ilkin mərhələdə gündə 10 milyon kubmetr yanacaq çıxarılacağı, 2028-ci ilə qədər isə bu rəqəmin 40 milyon kubmetrə çatacağı proqnozlaşdırılır. "Mavi yanacağ"a olan tələbatını, demək olar ki, bütünlüklə idxal edən Türkiyə üçün bu layihə çox mühüm önəm daşıyır.

Yeri gəlmişkən, TPAO şirkətinin prezidenti Melih Han Bilginin fikrincə, Türkiyə Qara dənizdəki "Sakarya" yatağı sayəsində ilin sonuna qədər tədarükdən asılılığını 15 faiz azaltmağı planlaşdırır: "Birinci mərhələdə "Sakarya" yatağı idxal qazından asılılığı 15 faiz azaldacaq, bu, ilin sonuna qədər baş verəcək. İkinci mərhələ ilə bu asılılıq 35 faiz təşkil edəcək".

Bütün bunlar qardaş dövlətin gəlirlərinin artmasına xidmət etməklə yanaşı, özünün və Avropanın enerji təhlükəsizliyinin formalaşmasında mövqeyinin daha da genişlənməsinə böyük təsir göstərəcək.

# Sudandakı vəziyyət beynəlxalq təşkilatlarda müzakirəyə çıxarılır

**Sudanda keçən həftənin sonlarında başlamış hərbi qarşıdurma hələ də davam etməkdədir. Ölkənin silahlı qüvvələri ilə xüsusi təyinatlı hissə arasında gedən silahlı toqquşmalar ağır nəticələrə gətirib çıxarmaqdadır. Hadisənin ilk günlərində silahlı qüvvələrin komandanlığı xüsusi təyinatlılara qarşı son əməliyyata başladığını, ikinci cəbhədəki döyüşçülərin təslim olaraq əsir düşdüyü barədə məlumat yaysa da, sonradan xəbərlər təsdiqini tapmadı.**



Dünən yayılmış məlumatlarda da Silahlı Qüvvələrin komandanı Əbdül Fəttah əl-Burhan xüsusi təyinatlıların silahı yerə qoyaraq təslim olduğu bildirilirdi. Amma xüsusi təyinatlı qüvvələrin lideri Məhəmməd Həmdan Daqalo əzmlə müqavimət göstərdiklərini bəyan edib.

Qeyd edək ki, bu iki qüvvə arasında mübarizə hakimiyyət davasıdır. Bu isə ölkədə islahatların həyata keçirilməsinə, hakimiyyətin hərbçilərdən mülki qüvvələrə verilməsinə mane olur.

Məsələ bundadır ki, bu iki hərbçi 2021-ci ildə əlbir olaraq ölkədə hərbi çevriliş həyata keçirib. Bundan sonra yaradılmış Suveren Keçid Şurasına əl-Burhan rəhbərlik edib. Xüsusi təyinatlıların komandiri Daqalo isə onun müavini olub. Bu yaxınlarda hazırlanmış yeni islahatlar xüsusi təyinatlıların Silahlı Qüvvələrin tərkibinə qatılmasını nəzərdə tutur. Daqalo bunu orduda təsirinin zəifləməsi hesab edir. Eyni zamanda, iki hərbi lider ölkədə prezident seçkilərindən sonra ordunun baş komandanının mülki dövlət başçısı, yoxsa peşəkar hərbçi olması ətrafında razılığa gələ bilməyib.

Ölkə əhalisi isə hər iki hərbçini cinayətkar hesab edir, onları 2019-cu ildə sabiq prezident Ömər əl-Bəşirə qarşı qiyam qaldırmaqda günahlandırır. Ona görə də islahatlardan sonra hər iki hərbçi məsuliyyətə cəlb edilməkdən qorxur. Bə beləcə, silahlar işə düşüb.

Hər iki rəqib həm də ölkənin zəngin təbii ehtiyatlarına sahib olmaq istəyir. Bu məsələdə ölkədə marağı olan xarici qüvvələr də var. Sudan Qana və Cənubi Afrika Respublikasından sonra üçüncü qızıl istehsalçısıdır. Ölkədə zəngin qızıl ehtiyatları mövcuddur. Bunun işlənməsində bir çox ölkələr, o cümlədən, Rusiya maraqlıdır.

2017-ci ildə sabiq prezident əl-Bəşir RF lideri Vladimir Putinlə görüşündə demişdi: "Sudan Rusiyanın Afrikadakı açarı ola bilər". Bir il sonra ABŞ Maliyyə Nazirliyinin fikrincə, rusiyalı Yevgeni Priqojinə məxsus "M-İnvest" şirkəti Sudan mədənlərində işə başlayıb və bu fəaliyyət indi də davam edir.

Başqa ölkələrin də Sudanda maraqları var. Misir də bu sıradadır və əsasən əl-Burhanın dəmir əlinə güvənir. Daqalonun isə Eritreya və Həbəşistanla, eləcə də qızıl yataqlarının işlənməsi sayəsində Moskva ilə sıx əlaqələri mövcuddur.

Beləliklə, hazırda əl-Burhan və Daqalo üçün əsas məsələ hakimiyyətdə qalmaq və təsir rıçaqlarına malik olmaqdır. Ona görə də döyüşlər davam edirlər. Amma sudanlılar hələ 2018-ci ildəki kütləvi aksiyalar zamanı demokratiyaya tərəfdar olduqlarını və hərbi idarəçiliyi istəmədiklərini bildiriblər. Bütün bunlarla belə, Qərb siyasi analitikləri Sudanda vətəndaş müharibəsini istisna edirlər. Onların fikrincə, vətəndaş cəmiyyəti bu iki qüvvə arasında səssiz qalsa da, əvvəlki kimi, demokratiya uğrunda mübarizəni davam etdirir və islahatların həyata keçməsinə çalışır.

Son məlumatlara görə, dünən də iki qüvvə arasında döyüşlər davam edib.

"Euronews"in məlumatına görə, artıq Sudanın minlərlə dinc sakini və hərbçisi döyüş zonalarını tərk edərək qonşu Çada pənah gətirib. Çad Prezidentinin Hərbi Qərargahının rəisi Bişar İssa Cadalla bildirib ki, "artıq 320 hərbçi və çoxlu mülki şəxs bizim ərazidədir, onları qəbul edirik və lazımınca yerləşdirməyə çalışırıq".

Bəzi ölkələr, o cümlədən, Almaniya, Niderland və Yaponiya vətəndaşlarını bu ölkədən çıxarmağı planlaşdırır. Dünən BMT, Afrika İttifaqı, Ərəb Dövlətləri Liqası və başqa təşkilatlar Sudandakı vəziyyəti müzakirə ediblər. BMT-nin İnsan haqları üzrə ali komissarı Folker Türk dərhal hərbi əməliyyatları dayandırmağa şağırıb.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, ağır döyüşlər nəticəsində artıq 300 nəfərdən çox insan həlak olub, 3000-dən çoxu yaralanıb. Ancaq ölənlərin sayı hər keçən gün artır, çünki küçələrdəki meyitləri atəşlər altından yığmaq çətin olur.

Bundan əlavə, döyüşlər səbəbindən azı 39 xəstəxana fəaliyyətini dayandırıb. Bu məlumatı isə Sudanın həkimlər komitəsi yayıb. "Toqquşmalar səbəbindən ölkənin paytaxtında və hərbi əməliyyatların getdiyi rayonlarda fəaliyyət göstərən 59 əsas xəstəxanadan 39-u işini dayandırıb", - deyə məlumatda bildirilir.

Doqquz xəstəxana isə atəşə tutulub, 16 tibb müəssisəsi təxliyə olunub. İşini davam etdirən 20 xəstəxanada yalnız ilk tibbi yardım göstərilir. Həkimlərin sözlərinə görə, həmin xəstəxanalar da tibbi personalın, dərman preparatlarının, su və elektrik enerjisinin çatışmazlığı səbəbindən bağlanma təhlükəsi ilə üz-üzədir.

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**

***Ekspert rəyi***

**Tural İSMAYILOV, politoloq**



Sudan Afrikanın ictimai-siyasi sabitlikdən ən uzaq ölkələrindən biridir. Dəfələrlə bu ölkənin daxilində müxtəlif qalmaqallar, qarışıqlıqlar törənib. Siyasi və hərbi qarşıdurmalar zaman-zaman Sudanın daxilində vəziyyətin daha da gərginləşməsinə səbəb olub. Amma bu günə qədər ölkədə gərginliyin azaldılması üçün hökumət tərəfindən heç bir iş görülməyib.

Eyni zamanda, ölkənin təbii sərvətləri və xarici istismarçıların marağına səbəb olan faydalı qazıntı yataqları mövcuddur. Bütün bunlar xarici güc faktorlarının Sudanda vəziyyəti qarışdırması şərtləndirir. Ölkədəki qeyri-sabitlikdən, hərbi qarşıdurmalardan istifadə edən beynəlxalq güclər ölkə daxilində agentura bazalarını yaratmağa ciddi cəhdlər edirlər.

Sudanda daha əvvəllər də bu tip toqquşmalar olub. Budəfəki hadisə Sudan ordusu daxilindəki fikir ixtilaflarının nəticəsində törəyən hadisədir. Ölkədə ordunun ən önəmli hissəsini xüsusi təyinatlı qüvvələr təşkil edir. İndi xüsusi təyinatlı qüvvələr təkcə mərkəzi hərbi komandanlığa qarşı etiraz etmir. Əslində, proseslər xüsusi təyinatlıların rəhbərliyi ilə Sudan ordusunun Baş Qərargahı arasında narazılıq fonunda özünü göstərsə də, daha sonra xüsusi təyinatlı qüvvələr birbaşa mərkəzi siyasi hakimiyyət devirməyə iddialı oldu. Nəticədə çoxlu ölən və yaralananlar var. Amma görünən budur ki, xüsusi təyinatlılar vəziyyətin daha da gərginləşməsinə çalışır.

Hesab edirəm ki, onlar Sudan Silahlı Qüvvələri üzərində qələbələr qazandıqca siyasi hakimiyyətə iddiaları daha da böyüyəcək və Sudan daxilində vətəndaş müharibəsinin qanlı nəticələrə gətirib çıxarmasına səbəb olacaq.

Vəziyyətin düzəlməsi üçün BMT də daxil olmaqla, beynəlxalq sülhyaratma qüvvələri müdaxilə etməlidir. Əks təqdirdə biz yenə də Afrikada növbəti ağır bir fəlakətə şahidlik etməli olacağıq.

**Dünən Əqli Mülkiyyət Agentliyinin 23 Aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan - Türk torpaqları olan Zəngəzur həqiqətləri" mövzusunda konfrans keçirilib.**

# Erməni saxtakarlıqlarını ifşa edən konfrans



Agentliyin İdarə Heyətinin sədri K.İmanov erməni siyasətinin əsas dəst-xəttinin mifologiya olduğunu qeyd edərək bu miflərin hamısı məqsəd quruluşuna və praktiki təyinatına görə birləşərək, siyasi mifologiya kateqoriyasına aid olduğunu bildirib.

Ümummilli liderin uzaqgörənliyi nəticəsində yaradılan, müəllifi olan milli əqli mülkiyyət sistemi Prezident İlham Əliyevin səyləri və dəstəyi nəticəsində uğurla inkişaf etdiyini vurğulayan K.İmanov dövlət başçısının göstərişlərindən irəli gələn çevik, daha yığcam və daha məqsədyönlü struktur vasitəsilə sahələrin idarə edilməsi, şəffaflığın, səmərəliyin və cavabdehliyin təmin olunması məqsədilə Əqli Mülkiyyət Agentliyinin yaradılmasının və bu modeli reallaşdıran publik hüquqi şəxs institutun öz töhfələrini verdiyini söyləyib.

O, bunun institusional islahatın effektivliyinin təsdiqi olduğunu qeyd edərək bildirib ki, məhz buna görə əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr ölkənin innovasiya siyasəti ilə müəyyən edilir və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət edir.

Konfransda çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, Milli Məclisin üzvü İsa Həbibbəyli, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Milli Məclisin üzvü, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli, mədəniyyət nazirinin müavini Səadət Yusifova, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-Hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Xarici media ilə iş sektorunun müdiri Fuad Axundov və başqaları tədbirin əhəmiyyətini vurğulayıblar, mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Sonra erməni saxtakarlığını ifşa edən "Tarixin izi ilə" silsiləsindən "Keçmişin böyük yalanları: Armeniya və Hayastan" televiziya filmi nümayiş etdirilib.

Tədbirdə Kamran İmanovun "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya əzəli Azərbaycan - Türk torpaqları olan Zəngəzur həqiqətləri", AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru Kərim Şükürovun "Zəngəzurun tarixi demoqrafiyası", Əqli Mülkiyyət Agentliyinin eksperti Elşad Əlilinin "Sünik (Sisakan) adının etimologiyası və onun Üç Ox oğuzları ilə əlaqəsi" mövzusunda məruzələri dinlənilib.

Konfrans çərçivəsində "Erməni uydurmalarını ifşa edən yazılı mənbələr" adlı kitab sərgisi də təşkil edilib. Sərgidə Agentlik tərəfindən nəşr olunan kitablar nümayiş olunub.

***Q.QASIMOV,***
***"Xalq qəzeti"***

# Dohada Əfqanıstan üzrə görüş

**BMT-nin baş katibi Antonio Quterreş bu il mayın 1-də Qətərin paytaxtı Dohada müxtəlif ölkələrin Əfqanıstan üzrə xüsusi nümayəndələri ilə görüş keçirəcək. Bu barədə ABŞ-ın Əfqanıstan üzrə keçmiş xüsusi nümayəndəsi Zalmay Xəlilzad özünün "Twitter" səhifəsində yazıb.**



Z.Xəlilzad həmçinin Taliban hərəkatının formalaşdırdığı Əfqanıstanın müvəqqəti hökumətinin nümayəndələri ilə birlikdə görüləcək işlərin yol xəritəsinin hazırlanmasına çağırış edib.

Xatırladaq ki, 2021-ci ilin yazında ABŞ öz ordu birləşmələrini Əfqanıstandan çıxarmaq qərarını elan etdikdən sonra radikal Taliban qüvvələri ölkəyə nəzarəti bərqərar etmək üçün genişmiqyaslı əməliyyata başlayıb və həmin ilin 15 avqust tarixində döyüşsüz Kabilə daxil olub.

Bundan sonra isə 7 sentyabrda legitimliyi hələ heç bir ölkə tərəfindən tanınmayan müvəqqəti hökumətinin tərkibini açıqlayıb.

Bu arada BMT Baş katibin sözçüsü Stefan Dujarrik BMT missiyasının Əfqanıstandan gələn ay çıxarılması ilə bağlı məlumatları təkzib edib və bildirib ki, Əfqanıstan xalqına kömək etmək üçün BMT mümkün olan hər şeyi etmək niyyətindədir.

"Düşünürəm ki, bizim dediklərimiz yanlış qəbul edilib və anlaşılmazlıq baş verib. Biz Əfqanıstanda qalırıq. Biz Əfqanıstan xalqına kömək etmək üçün əlimizdən gələni etmək niyyətindəyik", - deyə Dujarrik qeyd edib.

***"Xalq qəzeti"***

# Paşinyan iki od arasında

**Bir yandan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sülh missiyasını öz ərazisində yerləşdirməyə hazır olduğunu bildirən Hayastanın baş naziri, digər tərəfdən, ABŞ Dövlət Departamentinin baş müşaviri ilə Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması məsələsini müzakirə edir.**

ABŞ – Fransa cütlüyü və Rusiyanın timsalında iki od arasında vurnuxan Ermənistanın baş naziri Nikol Paşinyanın bir gündə neçə stul dəyişməsi sualı daxili gündəmin əsas mövzusuna çevrilib. Söhbət ondan gedir ki, Paşinyan əvvəlcə yerli jurnalistlərlə söhbətində Ermənistanın KTMT-nin sülhməramlı missiyasını öz ərazisində yerləşdirməyə hazır olduğunu bəyan edib. Baş nazir bu zaman açıqlamasını siyasi bəlağətlə süsləməyi də unutmayıb: "Bu işə təkcə Rusiya deyil, Ermənistan da tam hazırdır".

Moskva ilə özlərinin narahatlıq dairəsini müəyyən etdiklərini xüsusi vurğulayan Paşinyan bu məsələdə əsas istəklərinin KTMT missiyasının "yüksək effektivliyə" mailk olması ilə bağlı olduğunu söyləyib. Amma pozitiv diplomatik bəyanatın ardınca hayların baş naziri haqqında danışılan məsələ ətrafında müzakirələrin davam etdiyini söyləməyi də unutmayıb.



* * *

Oxucuların nəzərinə çatdıraq ki, aprelin 5-də Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova ənənəvi brifinqdə məsələ ilə bağlı maraqlı açıqlama vermişdi: "Kreml KTMT missiyasının Ermənistana daxil olmasının regionda sabitliyə xidmət edəcəyinə inanır və süllməramlıların mümkün yerləşdirmə müddəti birbaşa İrəvandan asılıdır. İndi top Ermənistan tərəfindədir".

Əgər Zaxarovanın nəzərdə tutduğu top yalnız Ermənistanın siyasi meydançasında olsaydı, problemdən danışmağa lüzum qalmazdı. Amma, təəssüf ki, heç cür sərbəst oyunçu olmağı bacarmayan baş nazir Nikol Paşinyan son iki ildə artıq neçənci dəfədir özünü eyni vaxtda iki stulda əyləşmək zərurəti ilə üz-üzə qoyur. Axı Qərbin böyük gücləri də ehtiyat skamyada gözləmək fikrində deyillər və onlar Paşinyanın altına öz stullarını sürüşdürmək cəhdlərindən əl çəkənə oxşamırlar.

Hayastan baş nazirinin KTMT missiyası barədə Moskvaya "şad xəbəri" çatdırandan bir neçə saat sonra İrəvanda ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Luis Bono ilə görüşməsi ikinci stul versiyasının nə qədər real olduğunu bir daha təsdiqləyir. Bəs, görəsən, Paşinyan cənab Bono ilə görüşündə nədən danışıb? Erməni mediasının yazdığına görə, bu görüşdə müzakirə edilən əsas mövzu Ermənistan - Azərbaycan münasibətlərinin normallaşması, regional nəqliyyat infrastrukturunun bloksizlaşdırılması kimi məsələlər olub.

Moskvaya ötürdüyü ismarıcla nümayiş etdirdiyi mövqeyə daban-dabana zidd platformada müzakirələr aparan Paşinyan Kremlə münasibə vəziyyətində olan ABŞ Administrasiyasının regionda sabitliyin və təhlükəsizliyin təmin olunması istiqamətində səylərinin vacibliyini vurğulamağı da unutmayıb. Üstəlik, yüksək çinli qonağa mövcud problemlərin nizamlanmasına dair erməni tərəfinin yanaşma variantlarını da təqdim edib. Yəni, erməni bicliyi Nikola ikinci stulu əldən buraxmasına imkan vermir.

Onu yeri görünməyən üçüncü stula isə özününkülər - daşnaklar, lobbiçilər əyləşdirməyə çalışırlar. Hayların öz tarixindən məlumdur ki, üçüncü stulun yiyələri hər dəfə çıxılmaz vəziyyətə düşəndə ipə-sapa yatmayan etnik hədəflərini diplomatik dillə deyil, bir qayda olaraq, terrorun, sui-qəsdlərin vasitəsilə "başa salmağa" üstünlük veriblər. Son vaxtlar erməni cəmiyyətinin siyasi gündəmində dartışılan bu arzuolunmaz ehtimal - versiyanın özünü doğrultmasını qətiyyən arzulamırıq.

***İ.HƏSƏNQALA,***
***"Xalq qəzeti"***

# ABŞ İsveçi NATO-da görmək istəyir

**ABŞ-ın müdafiə naziri Lloyd Ostin Avropaya səfəri çərçivəsində dünən Stokholma gəlib. Pentaqonun şefi Burada isveçli həmkarı Pal Yonsonla görüşündə deyib ki, "Biz İsveçi yaydan əvvəl NATO-nun üzvü kimu görmək istərdik".**

L.Ostin həmçinin bu sözləri əlavə edib: "Biz İsveçin NATO-ya sürətlə daxil olması istiqamətində səylərimizi davam etdirmək əzmindəyik. Çalışacağıq ki, yaydan əvvəl bunu başa çatdıraq. Mən bunu çox vacib hesab edirəm".

Xatırladaq ki, 2022-ci il fevralın 24-də Rusiyanın Ukraynaya qarşı başladığı hücumdan bir müddət sonra Finlandiya və Ukrayna Şimali Atlantika Alyansına üzv olmaq qərarına gəlib. Lakin NATO üzvü olan Türkiyə hökuməti hər iki ölkənin ərazisində kürd yaraqlıları və onların tərəfdarlarının himayə olunduğunu səbəb kimi gətirərək bir sıra tələblər irəli sürdü.

Qeyd edək ki, Helsinki bu tələbləri yerinə yetirsə də, Stokholm ilə Ankara arasında bu məsələ ilə bağlı razılaşma əldə olunmadığı üçün İsveçin alyansa üzvlüyü təxirə salındı.

***"Xalq qəzeti"***




# "Azpetrol" şirkətinin Ramazan bayramı ilə bağlı xeyriyyə tədbiri

**"Azpetrol" şirkətinin təşəbbüsü və korporativ sosial məsuliyyət öhdəliklərinin icrası çərçivəsində Ramazan bayramı münasibətilə ərzaq yardımları paylanılıb.**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Bakı Regional Məşğulluq filialı ilə birgə həyata keçirilən xeyriyyə tədbiri paytaxt ərazisində yaşayan şəhid ailələrini əhatə edib.

Bundan əlavə, bayram payları "Azpetrol" şirkətinin Vətən müharibəsində şəhid olmuş dörd əməkdaşının ailələrinə də çatdırılıb.

"Azpetrol" şirkəti Vətən müharibəsində şəhid olanların ailələrini və Qarabağ qazilərini daim diqqət mərkəzində saxlayır, bayramlarda və əlamətdar günlərdə onlara yardım edir.

***"Xalq qəzeti"***

# İlk Kino Forumu: nailiyyətlərə və gələcək vəzifələrə baxış platforması






**Heydər Əliyev Mərkəzində "Azərbaycan Kinosu – 125. Reallıq, çağırışlar və hədəflər" mövzusunda Kino Forumuna start verilib. Ölkəmizdə ilk dəfə keçirilən Forumda görkəmli mədəniyyət, incəsənət xadimləri ilə yanaşı, xarici ölkələrdən gəlmiş qonaqlar da iştirak edirlər.**

Forum Azərbaycan milli kinosunun keçdiyi inkişaf yolundan bəhs edən videoçarxın nümayişi ilə başlanıb.

Mədəniyyət naziri Adil Kərimli çıxış edərək Forumun əhəmiyyətindən danışıb. O deyib ki, bu yaradıcı toplantı ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilir. Bir neçə gün əvvəl məhz bu məkanda Teatr Forumu da təşkil edilmişdi: "Ümid edirik ki, Kino Forumu da çox maraqlı müzakirələrlə yadda qalacaq və kinomuzun inkişaf yoluna işıq salacaq. Bu gün burada yığışmağımızın əsas məqsədi hazırda Azərbaycan kino sənətinin üzləşdiyi problemləri, eyni zamanda, perspektivləri müzakirə etmək, onların həlli yollarını taparaq bunun əsasında yeni inkişaf istiqamətlərini müəyyən etməkdir. Teatr və Kino forumundan əlavə, bu il ərzində ulu öndərin 100 illik yubileyi çərçivəsində mədəniyyətimizin digər sahələri ilə də bağlı forumlar keçiriləcək və nəticədə, Mədəniyyətimizin İnkişaf Strategiyasını irəli sürəcəyik".

Milli kino tarixinə ekskurs edən nazir yaradılmış sanballı ekran əsərlərinin onilliklər boyu soydaşlarımızda milli-mənəvi dəyərlərə hörmət, Vətənə məhəbbət və sədaqət hissləri aşıladığını, xalqımızın dünyagörüşünün formalaşmasına öz töhfəsini verdiyini bildirib.

Adil Kərimlinin sözlərinə görə, incəsənətin bütün sahələrində olduğu kimi, milli kinomuzun inkişafında da ümummilli lider Heydər Əliyevin xidmətləri danılmazdır. "Kino bizim xalqımızın salnaməsidir" – deyən ulu öndər istər sovetlər dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi vaxtlarda milli kino sahəsinə yüksək diqqət və qayğı göstərmişdir. SSRİ dağıldıqdan sonra Azərbaycanda digər sahələrdə olduğu kimi, kinoda da durğunluq yarananda məhz ulu öndərin qayğısı nəticəsində milli kinomuz yenidən dirçəlməyə başlamışdır. Kino fəaliyyətinin normativ-hüquqi bazası formalaşdırılıb və Dövlət Film Fondu təsis edilmişdir. Uzun illər Azərbaycanda da sovet kinosu günü qeyd olunurdu. Lakin, ulu öndər tərəfindən kino tariximizə qarşı bu haqsızlığa son qoyulmuş və müvafiq sərəncamla milli kino tarixinin başlanğıcı – 1898-ci il, 2 Avqust Azərbaycan Kinosu Günü kimi qeyd edilməyə başlamışdır.

Bu gün Azərbaycan kino sənətinə Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət yetirilir. Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı", "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" 1 mart 2019-cu il tarixli sərəncamı milli kino sənətinə yüksək diqqət və qayğının bariz nümunəsidir.

Son illər ölkəmizdə istehsal olunan filmlərin dünyanın ən nüfuzlu beynəlxalq film festivallarında iştirakı və mükafatlandırılması, habelə film çəkilişinə vəsait qoyuluşunun həcminin artması və tamaşaçı auditoriyasının genişlənməsi kinematoqrafiyamızın keyfiyyətcə yeni inkişafından xəbər verir. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında kino sənətinin də inkişaf etdirilməsi konsepsiyası öz əksini tapmışdır. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu sahəyə göstərdiyi qayğı nəticəsində müxtəlif illərdə Azərbaycanın kino sənəti bir sıra beynəlxalq festivallarda, eləcə də Kann kinofestivalında təbliğ edilmişdir.

Mədəniyyət naziri vurğulayıb ki, kinematoqrafiyada şəffaf idarəçilik mexanizmlərinin tətbiqi məqsədilə Kino Agentliyinin yaradılması irəliləyişə böyük təkan olmuşdur. Mədəniyyət Nazirliyi aidiyyəti qurumlarla birgə Agentliyin fəaliyyətə başlaması üçün tələb olunan bütün lazımi işləri tamamlamışdır. Kino Agentliyinin yaradılması Azərbaycan kinosuna gələcəkdə Agentlik vasitəsilə bir çox yeni beynəlxalq birgə layihələrdə iştirak etmək, "Evroimaj" kimi nüfuzlu beynəlxalq platformalara qoşularaq birgə kino istehsalında iştirak, Azərbaycan kinematoqrafiyasına yeni təcrübələr gətirmək, eləcə də audiovizual sahənin iqtisadi fəallığını artırmaq imkanı yaradacaq.

Nazirin sözlərinə görə, Azərbaycan kino sənətinin bir sıra problemləri də var. Buna görə də Forumun əsas məqsədi kino tariximizin zəngin irsini qoruyub saxlamaqla yanaşı, problemləri aydınlaşdırmaq, gələcək illərdə də inkişafı təmin etmək və rəqabət qabiliyyətli kinomuzun formalaşması istiqamətində atıla biləcək addımları birlikdə müzakirə etmək, bunun əsasında inkişaf strategiyaları və dövlət proqramlarının hazırlanılmasına nail olmaqdır: "Düşünürük ki, bu sahədə yaranmış yeni münasibətlər, yeni çağırışlar, özəl sektorun fəaliyyətinin təşviq edilməsi, dövlətdən asılılığın azaldılması və dünya kino sənayesində mövcud olan trendlərə çatması üçün müvafiq köklü dəyişikliklərin edilməsinə böyük zərurət vardır".

*Sonra ümumi müzakirələr olub. Forum panel müzakirələrlə davam edib. Çıxışlardan bəzi qeydləri təqdim edirik.*

**Şəfiqə Məmmədova, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti:** "Kino Forumunun keçirilməsi əlamətdar hadisədir. Teatr və kino sahəsinin inkişafı naminə dövlət səviyyəsində göstərilən dəstək fərəhlidir. Bugünədək Azərbaycan kinosunun, mədəniyyətinin keçdiyi inkişaf yolu uğurlu olub. Ümummilli lider Heydər Əliyevin kino sahəsinə, ümumən, mədəniyyət və incəsənət adamlarına göstərdiyi diqqət və qayğıdan hər kəs qürurla danışa bilər".

**Oqtay Mirqasım, Xalq artisti, rejissor:** "Ulu öndər Azərbaycan kinematoqrafiyasına, sözün əsl mənasında, atalıq edirdi, bu sahəyə qayğısını əsirgəmirdi. Mədəniyyətin bu sahəsini də millətin inkişafı üçün əsas vasitələrdən hesab edirdi. Qayğı estafeti uğurla davam edir. Amma təəssüf ki, bu gün kinoteatrlarımızın əksəriyyətində bayağı filmlər təbliğ olunur. Buna nəzər yetirilməlidir. Bəzi filmlərdə Azərbaycan cəmiyyəti elə təqdim olunur ki, xəcalət çəkirsən. Biz kinematoqrafçılar dövrün tələblərini nəzərdə saxlamalı, amma tamaşaçının da zövqünü korlamamalıyıq".

**Rasim Balayev, Xalq artisti:** "Azərbaycanfilm" kinostudiyası bir neçə illər dövlət dotasiyasında olmalıdır, dövlət və özəl qurumlar tərəfindən maliyyələşdirilməlidir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri, həmçinin sənətdə olan bəzi gənclər xarici ölkələrə treninqlərə, təhsil almağa göndərilməli və sənət mübadiləsi olmalıdır. Bildiyimiz kimi, Kino Agentliyi yaradılacaq və oraya Azərbaycan kinosunu bilən, kinematoqrafiyadan anlayışı olan adamlar cəlb olunmalıdır. Mən xoşbəxtəm ki, Qarabağın alınmasını görə bildim. Bu barədə, vətənpərvərlik mövzusunda filmlər çəkilməli, həmçinin xarici arenaya çıxarılmalıdır".

Digər natiqlər də Azərbaycan kinematoqrafiyasının müəyyən çatışmazlıqlarından söhbət açıb, eyni zamanda, kinomuzun gələcək inkişafına ümid bəslədiklərini vurğulayıblar.

***"Xalq qəzeti"***

# Böyük ekrana yeni nəfəs gələcək

**Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Azərbaycan Kinosu – 125. Reallıq, çağırışlar və hədəflər" mövzusunda Kino Forumunda ölkənin görkəmli mədəniyyət, incəsənət xadimləri ilə yanaşı, xarici ölkələrdən gəlmiş qonaqlar da iştirak edirlər. Milli Kinomuzun çağdaş simaları forum və mədəniyyətimizin inkişafı barədə qəzetimizə verdikləri qısa açıqlamada önəmli məsələlərə toxundular.**





**Hacı İSMAYILOV,**
**Azərbaycan Teatr Xadimləri İttifaqının sədr müavini,**
**Xalq artisti:**

– Əvvəla onu deyim ki, bu ilin əvvəlindən mədəniyyət sahəsində bir tərpəniş, irəliləyiş görürük. Bu günə qədər Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyi tərəfindən bir çox tədbirlər keçirilib. Elə yaxınlarda mənim də çalışdığım Akademik Milli Dram Teatrı ulu öndərin ən çox sevdiyi drammaturq Cəlil Məmmədquluzadənin "Ölülər" tamaşasını bu mərkəzdə təqdim etdi. Ondan bir qədər keçəndən sonra həmin mərkəzdə teatr forumu oldu.

Qeyd edim ki, teatr forumunda bir çox problemlərin həlli məsələsi ortaya qoyuldu, bir sıra mətləblər açıqlandı. Aydın oldu ki, gələcəkdə nə etmək, hansı işlər görməklə mövcud durumu yaxşılaşdırmaq olar. Ulu öndər həmişə deyirdi ki, mədəniyyəti yüksək olan xalq hər zaman inkişaf edəcək. Dünən Akademik Milli Dram Teatrı görkəmli dramaturqumuz İlyas Əfəndiyevin "Qarabağnamə" tamaşasını bu mərkəzdə təqdim etdi. Demək istədiyim budur ki, inkişaf, canlanma göz önündədir.

Bu gün də böyük bir hadisəyə şahidlik edirik. Əlbəttə ki, bu forumdan gözləntilərimiz çoxdur. Bildiyimiz kimi, kinomuzun böyük tarixi var və 125 yaşı tamam olur. Ümummilli liderin qeyd etdiyi kimi, kinomuz bizim salnaməmizdir. Və bu salnaməni qorumalıyıq, inkişaf etdirməliyik. İnanıram ki, keçirilən bu forum da bizim milli kino sənətimizin yenidən canlanması, inkişafı üçün böyük bir təkan olacaq. Belə bir Forumun keçirilməsi mədəniyyət tariximizdə mühüm hadisədir.

**Aslan ŞİRİN,**
**Əməkdar artist:**

– Kino Forumun keçirilməsini alqışlayıram. Bu, Azərbaycan mədəniyyəti tarixində mühüm hadisələrdən biridir. Burada problemlər qoyulur, kinomuzun keçdiyi inkişaf yolundan, qarşıda duran hədəflərdən, dəf edilməli maneələrdən söhbət açılır. Bu baxımdan, milli kinomuzun inkişaf etməsi və böyük izləyici auditoriyası toplaması üçün konkret iş ortaya qoyulmalıdır. Dövlət başçısının fərmanı əsasında Azərbaycanda Kino Agentliyi yaradılıb. Agentliyin yaradılması, bu forumun keçirilməsi, bundan bir neçə gün öncə teatr forumunun baş tutması tərəqqiyə istiqamətlənmiş mühüm addımlardır. Ümid edirəm ki, bu forumlar ölkəmizdə kino və teatr cameəsini qane edəcək mütərəqqi qərarlarla yadda qalacaq.



**Elşən RÜSTƏMOV,**
**Əməkdar artist:**

– Bakıda belə mötəbər tədbirin keçirilməsi hamımızı, bütün kino ictimaiyyətini sevindirir. Burada iştirak edən hər bir kəs bu forumun milli kinomuza böyük töhfə verəcəyini düşünür. Mən də hesab edirəm ki, bu gün bura toplaşan kino ictimaiyyətimiz, görkəmli mədəniyyət xadimlərimiz Azərbaycan kinematoqrafiyasının qarşısında dayanan problemləri aradan qaldırmaq üçün birləşəcəklər. Çünki milli kinomuzun inkişafı, yeni mərtəbəyə qaldırılması bütün xalqın arzusudur.

***Hazırladı:***
***Anar ƏLİ,***
***"Xalq qəzeti"***




# Azərbaycan Texniki Universiteti

*2023-cü il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturaya qəbul*

## ELAN EDİR

### Fəlsəfə doktoru proqramı üzrə

| İxtisasların şifri | Elm sahələri və ixtisaslar | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: əyani | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: qiyabi |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1203.01 | Kompüter elmləri | 3 | 1 | 2 |
| 1206.01 | Ədədi analiz | 2 | 1 | 1 |
| 2003.01 | Maye, qaz və plazma mexanikası | 1 | | 1 |
| 2303.01 | Qeyri-üzvi kimya | 1 | | 1 |
| 3306.01 | Elektrotexnika, elektrotexnika mühəndisliyi | 1 | | 1 |
| 3309.01 | Qida məhsullarının texnologiyası | 1 | | 1 |
| 3310.01 | Sənaye texnologiyası | 3 | 1 | 2 |
| 3312.01 | Materiallar texnologiyası | 1 | | 1 |
| 3313.01 | Maşınqayırma texnologiyası | 4 | 2 | 2 |
| 3313.02 | Maşınlar, avadanlıqlar və proseslər | 3 | 1 | 2 |
| 3315.01 | Metallurgiya texnologiyası | 2 | | 2 |
| 3322.01 | Enerji texnologiyası | 4 | 1 | 3 |
| 3324.03 | Uçan aparatların layihələndirilməsi, konstruksiyası və istehsalı | 1 | | 1 |
| 3325.02 | Radiotexnika, radionaviqasiya, radiolokasiya, televiziya sistemləri və qurğuları | 4 | 1 | 3 |
| 3327.01 | Nəqliyyat sistemləri texnologiyası | 4 | 1 | 3 |
| 3328.01 | Xüsusi əməliyyatlar texnologiyası | 4 | 2 | 2 |
| 3337.01 | İnformasiya-ölçmə və idarəetmə sistemləri (sahələr üzrə) | 1 | | 1 |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənilməsi(sahələr üzrə) | 12 | 2 | 10 (MDU üçün məqsədli 1 yer) |
| 3339.01 | İnformasiyanın mühafizəsi üsulları və sistemləri, informasiya təhlükəsizliyi | 4 | 1 | 3 |
| 3343.01 | İstilik texnikasının əsasları | 1 | 1 | |
| 3350.01 | Daşınma proseslərinin idarə edilməsi | 3 | 1 | 2 |
| 5302.01 | Ekonometriya və iqtisadi statistika | 2 | | 2 |
| 5309.01 | Sənayenin təşkili və dövlət siyasəti | 2 | 1 | 1 |
| 5312.01 | Sahə iqtisadiyyatı | 2 | | 2 |

### Elmlər doktoru proqramı üzrə

| İxtisasların şifri | Elm sahələri və ixtisaslar | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: qiyabi |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 3327.01 | Nəqliyyat sistemləri texnologiyası | 1 | 1 |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənilməsi(sahələr üzrə) | 1 | 1 |

**Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilməlidir:**

1. Kadrların şəxsi qeydiyyat vərəqi.
2. Tərcümeyi-hal.
3. İş yerindən xasiyyətnamə.
4. İş stajı olanlar üçün əmək kitabçasından çıxarış.
5. Çap olunmuş elmi əsərlərin siyahısı (elmi əsərlərin surətləri əlavə edilməklə) və ya seçilmiş ixtisasa aid olan mövzu üzrə referat.
6. Ali təhsil haqqında diplomların (diplomun) və qiymət cədvəllərinin (qiymət cədvəlinin) notarial qaydada təsdiq olunmuş surətləri (xarici ölkələrdə təhsil almış vətəndaşlar üçün təhsil haqqında sənədin tanınması barədə Elm və Təhsil Nazirliyinin şəhadətnaməsi).
7. Şəxsiyyəti təsdiq edən sənədin surəti.
8. Fəlsəfə doktoru (elmlər namizədi) diplomunun notarial qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üzrə sənəd verənlər üçün).

Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Müraciət edəcək şəxslər Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək təlimatlara uyğun qeydiyyatdan keçməlidirlər. Müraciətlərin göndərilməsi 2023 – cü il mayın 16-dək davam edəcəkdir.

Əlaqə nömrəsi: +994 12 539 12 41.
Ünvan- AZ 1073.Bakı, H.Cavid prospekti 25.
Azərbaycan Texniki Universiteti. (1-ci korpus, 427-ci otaq).

*Ramazan başa çatdı*



# 100 şəhid və qazi ailəsi mənzil aldı

**Ramazan ayının son günü şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara, həmçinin digər imtiyazlı şəxslərə yeni mənzil və fərdi evlərin sənədləri təqdim edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərəfindən MİDA-nın Hövsan Yaşayış Kompleksində və Abşeron, Tərtər, Goranboy, Ucar və Zərdab rayonlarında verdiyi 100 mənzilin və fərdi evlərin sevincini yaşayanlar arasında, gözdən əlilliyi olanlar, Çernobıl əlilləri də var.**

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Vüsal Nəsirli tədbir iştirakçılarını Ramazan bayramı münasibətilə təbrik edib. O, qeyd edib ki, Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək zərfi çərçivəsində ötən dövrdə 124 min şəxsə 281 min xidmət göstərilib. Bu sosial dəstək zərfi nəticəsində mənzil, fərdi evlə təminat proqramı da 5 dəfə genişlənib. 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və əlilləri də mənzillə təmin olunurlar.

Yeni təqdim edilən mənzil və fərdi evlər də daxil olmaqla, Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara 4 min 660, ümumilikdə isə ötən dövrdə 13 min 460 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığı uyğun olaraq, 2023-cü ildə də bu kateqoriyadan olan vətəndaşlarımıza azı 1500 mənzil və fərdi ev veriləcək.

Mənzil alanlar daim dəstəklə əhatə olunduqları, həmçinin yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***Z.HÜSEYNOVA, “Xalq qəzeti”***

# İlahi sınaq və mənəvi kamillik marafonu

**“Bəşər övladını əxlaqi paklığa, humanizmə, birlik və bərabərliyə dəvət edən, insanların ruhunu və mənəviyyatını saflaşdıran mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borclarını ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar.**



İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycanda Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur”. Bu fikirlər ölkə Prezident İlham Əliyevin Ramazan bayramı münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikdəndir.

Cəmiyyətimizdə vəhdəti və həmrəyliyi daha da gücləndirən, xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən Ramazan ayının İslam aləmində “on bir ayın sultanı” adlandırılmasının səbəbi bu ayda müsəlmanlar üçün iki mühüm dini hadisənin baş verməsidir. Həmin hadisələrdən biri İslam dininin müqəddəs kitabı Qurani-Kərimin həzrəti Peyğəmbərimizə (s.) Ramazan ayının gecələrinin birində nazil olmasıdır ki, həmin gecə “Qədr” və ya “Əhya” adlanır. Digəri isə müsəlman təqvimi hicrinin 2-ci ilində ibadətlərdən biri olan Orucun Allah-təala tərəfindən bütün müsəlmanlar üçün fərz buyurulmasıdır. Bu ibadət həmin ayda buyurulduğuna görə “Ramazan orucu” adlandırılır. Müqəddəs kitabımız Qurani-Kərimdə deyilir: “Ramazan ayı insanlara doğru yol göstərən, doğru yolu və haqqı batildən ayırmağı açıq-aşkar dəlillərlə bəyan edən Quranın nazil olduğu aydır. Sizdən hər kim o aya yetişsə, oruc tutsun.”

Allahın orucu ibadət olaraq vacib buyurmasındakı məqsəd maddi və mənəvi sıxıntı ilə üzləşən insanları xilas etməkdir. Bu mənada, İlahi buyruqlar olan ibadətlər, o cümlədən oruc insanın öz mənəvi mövcudluğunu qoruması üçün sığınacağı limandır. Oruc tutan bəşər övladı pis əməldən, tamahdan, bilərəkdən, yaxud bilməyərəkdən etdiyi günahlardan təmizlənmək üçün Uca Yaradandan əfv diləyir, imkansızların keçirdiyi hissləri özü yaşayır.

İlahiyyətçilar bildirirlər ki, oruc arzu və tələbatlarımızı müəyyən müddət ərzində durğunlaşdırır və insan bu yol ilə təqva sahibi olur. Oruc daxilimizdə nizamı bərqərar edir, ruhumuzu və iradəmizi gücləndirir, bəzi arzu və istəklərimizin önünə bir qalxan kimi sədd çəkir. İnsan gözünü, qulağını, dilini günahdan qoruyur. O, vicdanının səsini dinləməyi bacarır. Oruc sayəsində özü ilə üzləşmə fürsəti əldə edir və nəfsinə qalib gəlməyin mümkünlüyünü öyrənir.

Mənəviyyat və əxlaqı zənginləşdirən oruc həm də insanı daxilən saflaşdırır, pis vərdişlərdən uzaq tutur, Allah yolunda xeyirxah işlər görməyə səbəb olur.

Uca Yaradanın rizası yolunda xeyirxahlığı təcəssüm etdirən bu ülvi bayram günlərində valideynləri yad etmək və sevindirmək, qohum-əqrəbaya baş çəkmək, dünyasını dəyişənlərin məzarlarını ziyarət etmək, yetim, kimsəsiz və ehtiyacı olanlara şəfqət göstərmək, küsülüləri barışdırmaq hər bir müsəlmanın borcudur.

Orucun mühüm əməllərindən biri olan fitrə zəkatı Ramazan ayının son günündə çıxarılır. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə çıxarması, onu ehtiyacı olanlara verməsi vacibdir.

Ay ərzində, hətta zəif olsaq belə, oruc tutduq, namaz qıldıq, Qədr gecələrində oyaq qalıb millətimiz, əzizlərimiz, övladlarımız üçün dualar etdik. Bütün dualarımızın Rəbbimiz tərəfindən qəbul edilməsi diləyilə, bayramımız mübarək olsun!

***Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”***

# “Aynur-119” ASC səhmdarlarının nəzərinə!

14 iyun 2023-cü il saat 15.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələ:

1. “Aynur-119” ASC-nin 2022-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiq olunması.

Gündəlikdə nəzərdə tutulan məsələ ilə bağlı sənədlərlə qeyd olunan ünvanda tanış olmaq mümkündür.

Əlaqələndirici şəxs: Sənan Süleymanlı.
Əlaqə telefonları – 077-315-42-81.
Ünvan- Bakı, Kövkəb Səfərəliyeva küçəsi 16e, Time Business Center, 8-ci mərtəbə.

# 48 yoluxma faktı qeydə alınıb

***Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 48 yoluxma faktı qeydə alınıb, 82 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 831 min 41 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 820 min 399 nəfər müalicə olunaraq sağalıb, 10 min 220 nəfər vəfat edib. Aktiv xəstə sayı 422 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1002, bu günə qədər isə ümumilikdə 7 milyon 580 min 828 test icra olunub.

***“Xalq qəzeti”***

*"Heydər Əliyev İli"nə jurnalist töhfəsi*

# "Xalq qəzeti" – MKTS: 5 – 2



**Nəsimi Rayon İcra hakimiyyətinin ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ərazidəki idarə və müəssisələr arasında təşkil etdiyi mini-futbol yarışlarının növbəti turu da ciddi rəqabət və prinsipial oyunlarla yadda qaldı. Bu, belə də olmalıdır. Çünki ümummilli liderimiz idmanın da daimi qayğıkeşi və himayədarı idi, gənclərin də. Dünən idman meydançasında üz-üzə gələn rəqiblər – "Xalq qəzeti" və Nəsimi Rayon Mənzil Kommunal Təsərrüfatları Sahəsi məhz "Heydər Əliyev ili"nin tələblərinə uyğun mübarizə sergilədilər.**

"Xalq qəzeti" komandasının meydanda son 2 qələbəsinin səbəbi bu oyuna daha yaxşı hazırlaşması idi və ona görə də jurnalistlər daha yaxşı nəticə göstərdilər. Ötən oyun haqqında hazırladığımız qəzet materialında yazmışdıq ki, komandamızın qələbəsini təmin edənlər arasında məsul katibin müavini Qabil Əliyev də var idi. Dünənki oyunda isə məsul katibin özü – İlqar Rüstəmov da iştirak etdi və qələbəmizdə onun da özünəməxsus rolu oldu.

Biz ona görə böyük hesabla qalib gələ bildik ki, hücumçularımız öz aralarında əlaqə yaradılmasına nail ola bilmişdilər. Məlum olduğu kimi, mini futbolda oyunçuların sayı böyük futboldakından azdır. Ona görə də cəmi 5 nəfərdən ibarət olan (qapıçı istisna olmaqla) meydan oyunçuları arasında müdafiəni, yarımmüdafiəni və hücumu kimlərin təşkil etməsini müəyyənləşdirmək əsas vəzifələrdən biri idi. Komandamızın kapitanı Fikrət Əhmədov bu işin öhdəsindən bacarıqla gəlmişdi.

Ancaq kimə hansı "nöqtədə" oynamaq tapşırılmasından asılı olmayaraq, oyunçularımız imkan yaranan kimi bütün "cəbhələrə" baş çəkir və qələbəyə öz töhfələrini verirdilər. Hücumçularımız Rövşən Atakişiyev və Əvəz Rüstəmov gah rəqibin qapısı önündə olurdular, gah da öz qapımızın qorunmasına kömək edirdilər. Orta xətt oyunçularımız Fariz Ənsərov və Rüfət Abdullayev isə həm hücumçuların topla təmin olunmasının qayğısına qalırdılar, həm də müdafiəçilərimiz Fuad Cəfərli ilə Anar Məmmədovun köməyinə çatırdılar. Mən bütün bunları maraqla izlədim və təkcə nəticədən yox, oyundan da razı qaldım. Hakim də ədalətli idi.

Ancaq məmnun olmadığım bir məqam da var idi. Çünki təşkilatçılar komandalardakı oyunçuların sifariş siyahısının əvvəlcədən müəyyənləşdirilməsinin qayğısına qalmamışdılar. Bu münasibət isə hər yerdə keçərli olsa da, "Heydər Əliyev ili" kimi çox əlamətdar təntənə münasibətilə təşkil olunan yarışlarda keçərli olmamalıdır. Mənzil Kommunal Təsərrüfatları Sahəsi rayonun mühüm qurumlarından biridir və təbii ki, əməkdaşları da az deyil. Ona görə də şəffaflığı təmin etmək məqsədilə 6–7 nəfərlik komanda üzvlərinin sayını təşkilatçılara bir gün əvvəldən təqdim etmək o qədər də çətin məsələ olmamalıdır.

İnanırıq ki, növbəti yarışlarda komandaların meydana çıxacaq oyunçularının siyahısı oyundan əvvəl hazır olacaq və protokollar tərtib ediləcək.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Mariya Stadnik 9 qat Avropa çempionu oldu

***Xorvatiyanın paytaxtı Zaqrebdə güləş üzrə Avropa çempionatı davam edir. Qitə birinciliyində 50 kiloqram çəki dərəcəsində mübarizə aparan qadın güləşçimiz Mariya Stadnik təsnifat mərhələsində türkiyəli Evin Demirhana tam üstünlüklə qalib gəlib – 14:4.***

Millimizin lideri fransalı Jüli Sabatyeni 9:3 hesabıyla məğlub edərək yarımfinala yüksəlib. Stadnik finala gedən yolda polşalı Ana Lukasyakla güləşib və inamlı qələbə (9:0) qazanaraq 9-cu dəfə Avropa çempionatının finalına yüksəlib. O, həlledici görüşdə ukraynalı Oksana Livaçla qarşılaşıb və 9:4 hesabı ilə qalib gələrək növbəti dəfə qitə çempionu adını qazanıb.

55 kiloqram çəkidə çıxış edən həmyerlimiz Elnurə Məmmədova isə təsnifat mərhələsində litvalı Laura Staneliteni vaxtından əvvəl üstələyib – 13:3. O, dörddəbir finalda rumıniyalı Avropa çempionu Andrea Ana ilə qarşılaşıb və güclü rəqibinə müqavimət göstərə bilməyib – 0:11. Ana finala yüksəldiyi üçün Məmmədova 3-cü yer uğrunda güləşmək hüququ qazanıb. Elnurə polşalı Katarjina Kravçiklə görüşdən də məğlub (0:9) ayrılaraq debüt etdiyi Avropa çempionatını 5-ci pillədə başa vurub.



Mübarizəyə dörddəbir finaldan qoşulan Alyona Kolesnik (59 kq) italiyalı Morena de Vitanı "tuş"la məğlub edib. Kolesnik yarımfinalda ukraynalı dünya və Avropa çempionu Yuliya Tkaça müqavimət göstərə bilməyib – 0:10. Alyona bürünc medal uğrunda almaniyalı Sandra Paruşevskiylə güləşib və 1:3 hesabıyla məğlub olub.

Çempionatın dördüncü günündə daha beş qadın güləşçimiz medallar uğrunda mübarizəyə qoşulub. Türkan Nəsirova (53 kq) təsnifat mərhələsində Mariya Spirkovskayadan (Şimali Makedoniya) üstün olub - 10:0. O, dörddəbir finalda İspaniya təmsilçisi Marina Floresi 12:5 hesabı ilə məğlub edib. Həmyerlimiz yarımfinalda isveçli Avropa çempionu Emma Malmqrenlə dueldən məğlub ayrılıb. O, bürünc medal uğrunda türk Zeynep Yetgillə güləşəcək.

Mübarizəyə dörddəbir finaldan qoşulan daha bir güləşçimiz Jalə Əliyeva (57 kq) isə almaniyalı Elena Brüggerə 6:3 hesabı ilə qalib gəlib. O, yarımfinalda polşalı Yovita Vrjeşeni də 2:0 hesabı ilə üstələyərək debüt etdiyi Avropa çempionatının finalına yüksəlib. Təmsilçimiz həlledici görüşdə ukraynalı Alina Akobyanı sınağa çəkəcək.

Birgül Soltanova (62 kq) təsnifat mərhələsində estoniyalı Viktoriya Vessoya məğlub olub. Mübarizəyə dörddəbir finaldan qoşulan digər təmsilçimiz Elis Manolova (65 kq) isə rumıniyalı İrina Rinqaci ilə görüşdə məğlub olub. Rəqib finala yüksəldiyi üçün E.Manolova təsəlliverici görüşdə iştirak hüququ qazanıb. Onu fransalı Kendra Daçerlə qarşılaşma gözləyir. Nigar Mirzəzadə (72 kq) təsnifat mərhələsində ukraynalı Lyudmila Tiçinaya müqavimət göstərə bilməyib - 0:10.

Qeyd edək ki, bu çəki dərəcələrində təsəlliverici və medal görüşləri bu gün keçiriləcək.

***Elçin AĞAMİRZƏ,***
***"Xalq qəzeti"***

**Kino müsabiqəsi**

# "Neytral zonanın sonuncu sakini"

**Milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərə dəstək olmaq, bu istiqamətdə çalışan gənc rejissorların fəaliyyətini stimullaşdırmaq, kino mühitinə yeni adlar qazandırmaq məqsədilə "Azərbaycanfilm" kinostudiyası "START-2023" adlı film layihəsi müsabiqəsi elan edib. Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi, Azərbaycan kinosunun 125 və "Azərbaycanfilm" kinostudiyasının 100 illiyi çərçivəsində keçirilən müsabiqəyə 2022-ci ilin noyabrın 1-dən start verilmişdi. Sənəd qəbulu isə 2023-cü il yanvarın 31-dək davam edib.**

Müsabiqəyə tammetrajlı bədii, qısametrajlı bədii və qısametrajlı animasiya filmləri təqdim olunub. "Tammetrajlı bədii film layihəsi" kateqoriyasında Rövşən İskəndərovun "Özgə ağrı", "Qısametrajlı bədii film layihəsi" kateqoriyasında Nurlan Həsənlinin "Erkən hisslər" və Tahir Tahiroviç (Əliyevin) "Neytral zonanın sonuncu sakini" filmləri, "Qısametrajlı animasiya filmi layihəsi" kateqoriyasında Fuad Quliyevin "Balıq" və Firəngiz Bağırovanın "Sonuncu lələk" layihələri qalib elan olunub.

Qalib olan filmlər sırasında yer alan kinorejissor Tahir Əliyevin rejissor Ramil Ələkbərovla birgə ərsəyə gətirdiyi "Neytral zonanın sonuncu sakini" adlı ekran işində 90-cı illərdə Azərbaycan xalqının başına gətirilən müsibətlər nəticəsində sərhəd zonasında yaşayan əhalinin keçirdiyi ağır, gərgin hisslər əks olunur.

Qeyd edək ki, Tahir Əliyev "Azərbaycanfilm" kinostudiyasında rejissor assistenti, AzTV-nin "Xüsusi layihələr" departamentində rejissor kimi çalışıb. Bir çox kino




festivallarının iştirakçısı və qalibidir. Kinematoqrafiya sahəsindəki uğurlarına görə "İlin ən yaxşı film rejissoru", "Respublika Gənclər mükafatı" və digər fəxri adlara layiq görülüb.

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***

## HAVA PROQNOZU

✓ ***Aprelin 21-də***

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecəyə doğru bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Cənub küləyi əsəcək, axşama doğru arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 9-13°, günün birinci yarısında 14-19°, bəzi yerlərdə 21°-dək isti, axşama doğru isə şimal-qərb küləyinin güclənməsi ilə əlaqədar temperatur 4-5° aşağı enəcək.. Atmosfer təzyiqi 754 mm civə sütunundan 757 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 6-11°, gündüz 18-23° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 2-7°, gündüz 8-13°, bəzi yerlərdə 15-18° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** dağlıq rayonlardan başlayaraq arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 2-7°, gündüz 10-12°, bəzi yerlərdə 15-18° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** gün ərzində bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 8-13° , gündüz 17-22° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** gün ərzində bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 7-12°, gündüz 15-20°, dağlarda gecə və gündüz 2-7° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 8-12°, gündüz 17-22°, bəzi yerlərdə 25°-dək isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 8-13°, gündüz 18-23°, dağlarda gecə 9-14°, gündüz 15-19° isti olacaq.

*Sağlamlıq guşəsi*

## Qırmızı düyü – xolestorolun qənimi

***Ənənəvi Çin yeməkləri, əsasən, tərkibində təbii statinlər olan "qırmızı düyü" qanda xolestrol səviyyəsini aşağı salır. Kardioloqların bildirdiklərinə görə, yüksək xolesterol qanda və damarlarda xolesterin adlı yağlı maddənin çox olmasıdır. Mütəxəssislər bu problemin həm qarşısını almağın, həm də səviyyəsini azaltmağın yolların öyrəniblər.***

Qanda yüksək xolesterola yağlı yeməklər də daxil olmaqla, bir çox amillər səbəb ola bilər. Oturaq iş və həyat tərzi, siqaret çəkmək, spirtli içki qəbul etmək, həmçinin genetika bu səbəblərdəndir.



Qırmızı "Maya düyüsü" Asiya məhsuludur. Tərkibində təbii statinlər var, onlardan biri lovastatin adlanır. Statinlər adlanan xolesterolu azaldan dərmanların birləşmələri əslində buradan yaranıb. Lovastatin qaraciyərdə HMG-CoA adlı xolesterol istehsal edən fermentin güclü inhibitorudur. Bu fermentin fəaliyyətinə maneə törətməklə, lovastatin "pis" xolesterolun sintezini azaldır.

Mütəxəssislərin fikrincə, qanda iki növ xolesterol var, onlar "yaxşı" və "pis" xolesterol adlandırılır. "Pis" xolesterin kimi bilinən aşağı sıxlıqlı lipoproteinlər qan damarlarının divarlarında yığılır və zaman keçdikcə bu, damarların daxili hissəsini daraldır. Bu da, damarların tıxanmasına, nəticədə infarkt və insult kimi ciddi xəstəliklərə səbəb ola bilər.

## Oynaqlar niyə ağrıyır?

***Çoxumuz oynaqlardakı ağrıları havanın dəyişməsi, yağışın yağması ilə əlaqələndiririk. Əslində, atmosfer təzyiqinin, temperaturun və rütubətin dəyişməsi fonunda oynaq ağrısının baş verə biləcəyi iddiasının əsası yoxdur. Mütəxəssisər belə bir hökm üçün heç bir elmi sübutun olmadığını deyirlər.***

Əslində, aldığımız xəsarətlər və ya müəyyən patologiyalar səbəbilə (nə zamansa burulma, çıxıq, sınıq və.s.) ağrı baş verə bilər.

Oynaqlar hərəkət və yastığı təmin edən sümüklər, əzələlər, qığırdaqlar, bağlar və sinoviumdan (dəri ilə əzələ arasında yumşaq, incə qat) ibarətdir. İnfeksiya və ya zədə, həmçinin bəzi xəstəliklər–osteoartrit, revmatoid artrit, tendonların və ya bursaların iltihabı və s. səbəblərə görə oynaqların zədələnməsi mümkündür.

Nevroloqlar oynaq ağrılarının hava dəyişikliyi ilə əlaqələndirilməsi ilə bağlı



aparılan araşdırmaların heç birinin bu iddianı dəstəkləmədiyini bildirirlər.

Onu da qeyd edək ki, oynaqdakı ağrılara beldəki problemlər də daxildir. Ağır çəkili bir əşya qaldırdıqdan sonra beldə dözülməz ağrı olduqda, mütləq həkimə müraciət edib MRT müayinəsindən keçmək lazımdır. Bu, ümumi əzələ-skelet sistemi və ya qeyri-spesifik bel ağrısı olacaq. Digər ağrı növlərini istisna etmək və müalicə almaq üçün nevroloqa müraciət edilməlidir. Nəticədə müxtəlif diaqnozla üzləşmək olar: Sadə ağrılardan tutmuş revmatoid artrit kimi ciddi autoimmun xəstəliklərə qədər.

## Nəyi hər gün yemək olmaz?

***Bəzi məhsulları tərkibindəki maddələrə görə gündəlik qəbul etmək orqanizm üçün təhlükəlidir. Bunlar, fərdi pəhrizlər istisna olmaqla, hər gün qəbul edilməz.***



**1. Süd məhsulları.** İlk növbədə, kəsmik və şəkərsiz qatıqlar. Hər gün 50–150 qramdan artıq olmaz.

**2. Donuz, mal və quzu əti.** Həftədə 1–2 dəfə; quş əti (toyuq, hinduşka və digər quş növləri) həftədə 2–4 dəfə. Hamısı qaynadılmış, yaxşı bişmiş və hər dəfə 200 qramdan çox olmamaqla.

**3. Balıq.** Həftədə 4 dəfə. Bütün növ təzə, soyutma, azca duzlanıb qaynadılmış, buxarda bişirilmiş balıq yemək olar. Bir dəfəyə 100–200 qrama qədər.

**4. Yumurta.** Həftədə 2–5 ədəd. Suda qaynadılmış və ya buxarda bişirilmiş.

**5. Tərəvəz.** Hər gün, ən azı 500 qram. Hətta ən faydalısını da, həddindən çox yemək olmaz, çünki mədəni uzada bilər. Onu yaxşı çeynəyib yemək lazımdır.

**6. Meyvə, giləmeyvə.** Səhər yeməyi və nahardan sonra desert kimi. Bir növ meyvədən (alma, portağal, banan və s.) gündə 1 ədəd. Giləmeyvə – gündə bir stəkandan çox olmamaq şərti ilə.

***Z.BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

# NATO da süni intellektə ehtiyatla yanaşır

**Süni intellektin sürətli inkişafı bu texnologiyaları iş prosesimizə inteqrasiya etməyə imkan verir. "ChatGPT" və "Midjourney" kimi məhsuldar süni intellektlər dünyada liderlik edir. Lakin süni intellektin edə biləcəklərinin heç bir həddi yoxdur və onun davamlı inkişafı da narahatlıqlara səbəb olur. Bu sürətli inkişafın qarşısının alınması üçün şirkətlərə məktublar ünvanlanmağa başlanıb. Məsələn, "OpenAI" şirkətinin "ChatGPT"nin növbəti versiyasının yaradılması gecikdirilir. Bu inkişafın narahat etdiyi qurumlardan biri də NATO-dur. Belə ki, alyans süni intellekt texnologiyalarına nəzarət etmək üçün yeni qaydalar üzərində işləməyə başlayıb. Xəbəri "bbc.com" saytı verib.**



NATO-nun baş katibi Yens Stoltenberq bildirib ki, orduda süni intellekt və digər texnologiyalardan təhlükəsiz istifadə üçün yeni qaydalar üzərində işləyirlər və bu məsələdə Çinlə razılığa gəlmək fikrindədirlər.

NATO lideri təhlükəsizliklə bağlı konfransda deyib: "Biz raketlər və döyüş silahları kimi, ölkənin süni intellekt alqoritmlərini məhdudlaşdıra bilmərik. Lakin süni intellekt texnologiyaları və onlardan istifadə prinsipləri üzrə universal standartlar müəyyən ediləcək". Stoltenberq bu cür araşdırmalara misal olaraq Birləşmiş Krallığın kosmosda peyk əleyhinə raketlərin və enerji silahlarının istifadəsinin qadağan edilməsini göstərib.

***Əfsanə ƏHƏDLİ,***
***"Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Namiq Əhmədova xalası

**RUQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5007
SİFARİŞ 970
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00